| fontan armaturu, ton | 91,3 | 131,9 | - |
| Qaldırıcı qurğular, ədəd | 117 | 110,4 | 402 |
| Traktorlar, ədəd | 662 | 112,6 | 10 |
| **Avtomobil, qoşqu və yarımqoşquların istehsalı** | | | |
| Minik avtomobilləri, ədəd | 3738 | 182,4 | 17 |
| Yük avtomobilləri, ədəd | 799 | 188,4 | - |

### Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2023-cü ildə 3065,0 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, əvvəlki illə müqayisədə 0,6 faizlik artım müşahidə olunmuşdur.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 585,6 milyon manat təşkil etmişdir.

Cədvəl 24

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2023-cü ildə istehsal edilmişdir, milyon manat | Əvvəlki ilə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 3065,0 | 100,6 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 585,6 | 115,5 |

Cədvəl 25

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2023-cü ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə |
|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | |
| Elektrik enerjisi, mln. kVt.s | 27561,5* | 101,0 |
| ondan əmtəəlik | 26636,1 | 100,7 |
| istilik elektrik stansiyalarının istehsalı | 24816,7 | 100,3 |
| su elektrik stansiyalarının istehsalı | 1697,8 | 108,7 |
| küləklə işləyən elektrik stansiyaların istehsalı | 56,0 | 67,7 |
| günəş enerjisi ilə işləyən elektrik stansiyaların istehsalı | 65,6 | 108,8 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, mln. kub metr | 552,0 | 99,5 |

*) əsas fəaliyyəti elektrik enerjisinin istehsalı olmayan müəssisələr nəzərə alınmadan

# Tikinti

## Əsas kapitala yönəldilmiş vəsaitlər

2023-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 20296,6 milyon manat və ya 2022-ci illə müqayisədə 9,8 faiz çox vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 10,9 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 9,3 faiz artmışdır. Ümumi sərmayənin 12485,2 milyon manatı və ya 61,5 faizi məhsul istehsalı sahələrinin, 6840,0 milyon manatı (33,7 faizi) xidmət sahələrinin, 971,4 milyon manatı (4,8 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Ümumi sərmayənin 56,1 faizi dövlət, 43,9 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Sərmayə qoyuluşunun 71,7 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 80,9 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitdə müəssisə və təşkilatların öz vəsaitləri 9842,3 milyon manat, büdcə vəsaitləri 7428,9 milyon manat, əhalinin şəxsi vəsaitləri 1194,2 milyon manat, bank kreditləri 619,0 milyon manat, sair vəsaitlər 1212,2 milyon manat təşkil etmişdir.

Cədvəl 26

## Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | 2023-cü ildə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **20296,6** | **109,8** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların öz vəsaitləri | 9842,3 | 113,1 | 48,5 |
| Bank kreditləri | 619,0 | 119,5 | 3,0 |
| Büdcə vəsaitləri | 7428,9 | 106,5 | 36,6 |
| Büdcədənkənar dövlət fondlarının vəsaitləri | 0,0 | - | 0,0 |
| Əhalinin şəxsi vəsaiti | 1194,2 | 90,4 | 5,9 |
| Sair vəsaitlər | 1212,2 | 125,5 | 6,0 |

Qrafik 7

## Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə




2023-cü ildə əsas kapitala yönəldilmiş ümumi vəsaitin 40,1 faizi sənaye, 23,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 23,4 faizi

tikinti, 2,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi dövlət idarəetməsi və müdafiə, 2,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 1,8 faizi informasiya və rabitə, 1,2 faizi maliyyə və sığorta fəaliyyəti, 1,1 faizi təhsil, hər birində 0,4 faiz olmaqla turistlərin yerləşdirilməsi və ictimai iaşə, inzibati və yardımçı xidmətlərin göstərilməsi, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,3 faizi digər sahələrdə xidmətlərin göstərilməsi, 0,2 faizi peşə, elmi və texniki fəaliyyət, 0,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrinə sərf edilmişdir.

Cədvəl 27

**İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri**

| İqtisadiyyatın sahələri | 2023-cü ildə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **20296,6** | **109,8** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **569,2** | **134,9** | **2,8** |
| **Sənaye** | **8132,3** | **109,7** | **40,1** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 6081,4 | 118,0 | 30,0 |
| Emal sənayesi | 888,9 | 71,5 | 4,4 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 966,6 | 135,5 | 4,8 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 195,4 | 63,8 | 0,9 |
| **Tikinti** | **4755,1** | **130,5** | **23,4** |
| ondan mənzil tikintisi | 971,4 | 101,9 | 4,8 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **428,4** | **2,6 d.** | **2,1** |
| **Nəqliyyat və anbar təsərrüfatı** | **4765,9** | **99,8** | **23,5** |
| o cümlədən: nəqliyyat | 4758,8 | 99,8 | 23,5 |
| poçt və kuryer fəaliyyəti | 7,1 | 170,5 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **87,9** | **96,2** | **0,4** |

...ardı

| İqtisadiyyatın sahələri | 2023-cü ildə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **İnformasiya və rabitə** | **373,2** | **90,2** | **1,8** |
| ondan rabitə | 363,2 | 106,4 | 1,8 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **249,3** | **69,2** | **1,2** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **14,3** | **170,6** | **0,1** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **37,2** | **84,4** | **0,2** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **75,8** | **126,2** | **0,4** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **443,8** | **70,4** | **2,2** |
| **Təhsil** | **229,4** | **81,5** | **1,1** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **77,8** | **88,4** | **0,4** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **7,2** | **20,6** | **0,0** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **49,8** | **91,4** | **0,3** |

2023-cü ildə neft-qaz sektoruna 6265,5 milyon manatlıq vəsait yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına sərf edilmiş 14031,1 milyon manatlıq vəsaitin 1866,9 milyon manatı (ümumi sərmayənin 9,2 faizi) qeyri neft-qaz sənayesi sektorunda istifadə edilmişdir.

2023-cü ildə Naxçıvan Muxtar Respublikasında Naxçıvan Bərpa-istehsalat hərbi kompleksi, Bakı şəhərində Dövlət Təhlükəsizliyi Xidməti, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və Kənd Təsərrüfatı Nazirliyinin yeni inzibati binaları, “Bakı KOB evi”, “STEAM İnnovasiya Mərkəzi”, “Şimal” Kiçik Su Elektrik Stansiyası, dərman istehsalı zavodu, Qaradağ Günəş Elektrik Stansiyası, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli avtomobil yolu, Sumqayıt şəhərində Sumqayıt şəhər Xəstəxanasının yeni binası, Ağdam

rayonunda Bərdə-Ağdam avtomobil yolu, Samux rayonunda Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binası, Cəbrayıl rayonunda “Cəbrayıl” qovşaq elektrik yarımstansiyası, Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzi, Cəlilabad rayonunda Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi, Füzuli rayonunda Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzi, Füzuli-Hadrut avtomobil yolu, Bərdədə Qarabağ Regional DOST Mərkəzinin və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi, Xocavənd rayonunda Rəqəmsal İdarəetmə Mərkəzi, “Hadrut” qovşaq yarımstansiyası, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu, İsmayıllı rayonunda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin “DOST EVİ” filialı, Kəlbəcər rayonunda hərbi hospital, “Qamışlı” və “Meydan” Kiçik Su Elektrik stansiyaları, “Çıraq-1” və “Çıraq-2” Kiçik Su Elektrik stansiyaları, “Soyuqbulaq” Kiçik Su Elektrik Stansiyası, Laçın rayonunda “Qorçu” yarımstansiyası, “Laçın” şəhər yarımstansiyası, “Həkəri Balıq Təsərrüfatı”, Laçın rayonunun sənaye zonasında mebel fabriki, “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyaları, Qazax rayonunda mebel fabriki, Neftçala rayonunda Neftçala Olimpiya İdman Kompleksi, Salyan rayonunda “Asan xidmət” Mərkəzi, “Azərişıq” ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzi, Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolu, Suqovuşan qəsəbəsində istirahət parkı, Şuşa rayonunda Zarıslıçay nasos stansiyası, Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi, Şuşa Otel-Konqres Mərkəzi Kompleksi, Şuşa Yaradıcılıq Mərkəzi, “Yasəmən” oteli, Yuxarı Gövhər Ağa məscidi, Saatlı məscidi, Milli Xalça Muzeyinin Şuşa filialı, Mehmandarovların malikanə kompleksi, Zəngilan rayonunda “Cahangirbəyli” Su Elektrik Stansiyası, Zəngilan Konqres Mərkəzi Kompleksi və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 3656,2 milyon manatı (94,1 faizi) Birləşmiş Krallıq, Türkiyə, ABŞ, Yaponiya, İsveçrə, Rusiya, Fransa, Norveç və İran sərmayədarlarına məxsus olmuşdur.

2023-cü ildə tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilmiş inşaat işlərinin 80,7 faizini tikinti, yenidənqurma və genişləndirmə, 7,9 faizini əsaslı təmir, 7,1 faizini cari təmir, 4,3 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 88,7 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

Qrafik 8

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu** (ümumi yekuna görə, faizlə)



# Kənd təsərrüfatı

2023-cü il üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 12210,6 milyon manat təşkil etmişdir ki, onun da 6276,7 milyon manatı heyvandarlıq, 5933,9 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Qrafik 9

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu**




2022-ci illə müqayisədə kənd təsərrüfatının istehsalı 3,0 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,2 faiz, bitkiçilik məhsulları üzrə isə 2,7 faiz artmışdır.

Cədvəl 28

## Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən: heyvandarlıq məhsulları | o cümlədən: bitkiçilik məhsulları |
| **2022-ci il** | | | |
| Yanvar | 102,7 | 102,6 | 104,8 |
| Yanvar-fevral | 103,1 | 102,5 | 114,1 |
| Yanvar-mart | 103,4 | 102,8 | 114,4 |
| Yanvar-aprel | 103,6 | 102,8 | 114,8 |
| Yanvar-may | 103,3 | 102,8 | 105,1 |
| Yanvar-iyun | 100,0 | 102,8 | 97,3 |
| Yanvar-iyul | 103,1 | 102,7 | 103,4 |
| Yanvar-avqust | 103,2 | 102,7 | 103,6 |
| Yanvar-sentyabr | 103,0 | 102,9 | 103,0 |
| Yanvar-oktyabr | 103,2 | 103,1 | 103,2 |
| Yanvar-noyabr | 103,4 | 103,3 | 103,4 |
| Yanvar-dekabr | 103,4 | 103,4 | 103,3 |
| **2023-cü il** | | | |
| Yanvar | 103,3 | 103,4 | 102,0 |
| Yanvar-fevral | 103,3 | 103,4 | 101,9 |
| Yanvar-mart | 103,4 | 103,5 | 101,3 |
| Yanvar-aprel | 103,5 | 103,5 | 103,2 |
| Yanvar-may | 105,2 | 103,5 | 110,9 |
| Yanvar-iyun | 103,4 | 103,7 | 103,0 |
| Yanvar-iyul | 103,3 | 103,4 | 103,2 |
| Yanvar-avqust | 103,3 | 103,4 | 103,2 |
| Yanvar-sentyabr | 103,0 | 103,5 | 102,5 |
| Yanvar-oktyabr | 103,0 | 103,3 | 102,7 |
| Yanvar-noyabr | 103,1 | 103,3 | 102,8 |
| Yanvar-dekabr | 103,0 | 103,2 | 102,7 |

**Bitkiçilik.** Ölkədə kənd təsərrüfatı məhsullarının yığımı başa çatmışdır. 2023-cü ildə qarğıdalı da daxil olmaqla 948,3 min hektar sahədən, hər hektardan orta hesabla 33,0 sentner olmaqla, ilkin çəkidə 3248,6 min ton dənli və dənli paxlalı bitkilər toplanmışdır. 2022-ci illə müqayisədə 2,8 faiz çox məhsul götürülmüşdür.

2023-cü ildə istehsal olunmuş dənli və dənli paxlalı bitkilərin 1833,8 min tonunu və yaxud 56,4 faizini buğda təşkil etmişdir. Buğdanın məhsuldarlığı 33,8 sentner olmuşdur. Bundan əlavə, 1010,5 min ton və ya 2022-ci ilə nisbətən 5,9 faiz az kartof, 1825,6 min ton (0,1 faiz çox) tərəvəz, 438,2 min ton (6,6 faiz az) bostan məhsulları, 1261,3 min ton (0,7 faiz çox) meyvə və giləmeyvə, 224,5 min ton (5,6 faiz çox) üzüm, 1,1 min ton (12,3 faiz çox) yaşıl çay yarpağı, 29,3 min ton (0,2 faiz az) günəbaxan, 219,8 min ton (1,3 faiz az) şəkər çuğunduru, 6,3 min ton (24,9 faiz çox) tütün və 276,1 min ton (14,4 faiz az) pambıq yığılmışdır.

Cədvəl 29

## Bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilik məhsullarının yığımı

| | 2023-cü il | | | | 2022-ci il | | |
|---|---|---|---|---|---|---|---|
| | Əkin sahəsi, min hektar | Yığılmış sahə, min hektar | Yığılmış məhsul, min ton | Məhsul-darlıq, sent/ha | Yığılmış sahə, min hektar | Yığılmış məhsul, min ton | Məhsul-darlıq, sent/ha |
| **Dənli və dənli paxlalı bitkilər-cəmi** | **948,3** | **948,1** | **3 248,6** | **33,0** | **977,9** | **3 161,3** | **31,3** |
| o cümlədən: buğda | 542,8 | 542,8 | 1 833,9 | 33,8 | 543,5 | 1 736,1 | 31,9 |
| arpa | 356,6 | 356,6 | 1 066,7 | 29,9 | 382,7 | 1 100,8 | 28,8 |
| qarğıdalı | 28,6 | 28,6 | 293,1 | 66,1 | 30,5 | 275,3 | 58,6 |
| çəltik | 3,2 | 3,0 | 14,9 | 34,9 | 3,1 | 11,6 | 36,1 |
| sair dənlilər | 5,4 | 5,4 | 21,5 | 20,6 | 6,5 | 15,5 | 20,1 |
| paxlalılar | 11,7 | 11,7 | 18,5 | 15,5 | 11,6 | 22,0 | 15,8 |
| **Pambıq** | **93,7** | **93,7** | **276,1** | **29,5** | **104,2** | **322,5** | **30,9** |
| **Dən üçün günəbaxan**[1)] | **9,9** | **9,9** | **29,3** | **25,9** | **11,5** | **29,4** | **23,0** |
| **Şəkər çuğunduru**[1)] | **4,5** | **4,5** | **219,8** | **482** | **4,8** | **222,7** | **455** |
| **Tütün** | **2,7** | **2,7** | **6,3** | **23,1** | **2,4** | **5,1** | **20,8** |
| **Kartof** | **49,5** | **49,4** | **1 010,5** | **200** | **54,8** | **1 074,3** | **190** |
| **Tərəvəz** | **61,2** | **61,2** | **1 825,6** | **201** | **65,4** | **1 823,3** | **196** |
| **Bostan məhsulları** | **17,2** | **17,2** | **438,2** | **254** | **20,1** | **469,3** | **233** |
| **Meyvə və giləmeyvə** | **227,2**[2)] | **177,2**[3)] | **1 261,3** | **70,8** | **174,4**[3)] | **1 253,1** | **71,5** |
| **Üzüm** | **15,0**[2)] | **14,2**[3)] | **224,5** | **113,3** | **14,8**[3)] | **212,6** | **102,7** |
| **Yaşıl çay yarpağı, ton** | **1,0**[2)] | **0,7**[3)] | **1 123,8** | **15,3** | **0,8**[3)] | **1 000,9** | **12,2** |

[1)] ilkin çəkidə
[2)] cəmi əkmələr
[3)] bar verən yaşda əkmələr

Ölkədə 2024-cü ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmaq üzrədir və cari il yanvar ayının 1-i vəziyyətinə 1025,4 min hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir. Səpin aparılmış sahənin 99,0 faizini və yaxud 1015,6

min hektarını dən üçün payızlıq bitkilər təşkil etmişdir ki, onun da 598,3 min hektarı buğda, 417,1 min hektarı arpa, 0,2 min hektarı isə çovdar əkinlərinin payına düşür.

Ötən ilin eyni dövrü ilə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 4,6 faiz, o cümlədən buğdanın səpin sahəsi 9,9 faiz azalmış, arpanın səpin sahəsi 4,3 faiz artmışdır.

**Heyvandarlıq.** 2023-cü ildə quş əti də daxil olmaqla diri çəkidə 647,7 min ton ət, 2284,0 min ton süd, 2188,2 milyon ədəd yumurta, 15,1 min ton yun, 357,0 ton barama istehsal olunmuşdur. 2022-ci illə müqayisədə ət istehsalı 3,1 faiz, süd istehsalı 0,9 faiz, yumurta istehsalı 8,4 faiz, barama istehsalı 4,6 faiz artmış, yun istehsalı isə 3,9 faiz azalmışdır.

Cədvəl 30

**Əsas növ heyvandarlıq məhsullarının istehsalı, min ton**

| | Ət (diri çəkidə) | Süd | Yumurta, milyon ədəd | Yun |
|---|---|---|---|---|
| **2022-ci il** | | | | |
| Yanvar | 44,4 | 159,2 | 157,0 | - |
| Yanvar-fevral | 87,9 | 318,8 | 306,3 | - |
| Yanvar-mart | 134,3 | 493,3 | 476,6 | - |
| Yanvar-aprel | 181,6 | 685,0 | 643,1 | 2,2 |
| Yanvar-may | 220,1 | 890,9 | 824,8 | 12,0 |
| Yanvar-iyun | 276,8 | 1 093,1 | 988,8 | 14,4 |
| Yanvar-iyul | 317,1 | 1 284,4 | 1 165,1 | 14,8 |
| Yanvar-avqust | 364,2 | 1 457,6 | 1 323,3 | 15,2 |
| Yanvar-sentyabr | 411,2 | 1 655,5 | 1 486,5 | 15,6 |
| Yanvar-oktyabr | 470,8 | 1 837,6 | 1 658,6 | 15,6 |
| Yanvar-noyabr | 522,0 | 2 036,3 | 1 821,5 | 15,6 |
| Yanvar-dekabr | 628,0 | 2 264,7 | 2 018,1 | 15,8 |
| **2023-cü il** | | | | |
| Yanvar | 45,6 | 160,7 | 182,1 | - |
| Yanvar-fevral | 90,4 | 322,3 | 355,6 | - |
| Yanvar-mart | 138,3 | 501,4 | 543,5 | - |
| Yanvar-aprel | 187,3 | 697,6 | 726,5 | 2,1 |
| Yanvar-may | 226,9 | 909,5 | 918,6 | 11,7 |

...ardı

| | Ət (diri çəkidə) | Süd | Yumurta, milyon ədəd | Yun |
|---|---|---|---|---|
| Yanvar-iyun | 285,4 | 1 122,9 | 1 107,4 | 14,0 |
| Yanvar-iyul | 327,0 | 1 305,8 | 1 305,1 | 14,4 |
| Yanvar-avqust | 375,4 | 1 482,0 | 1 481,2 | 14,8 |
| Yanvar-sentyabr | 424,5 | 1 682,9 | 1 662,7 | 15,1 |
| Yanvar-oktyabr | 485,4 | 1 864,5 | 1 832,5 | 15,1 |
| Yanvar-noyabr | 538,2 | 2 062,2 | 2 001,2 | 15,1 |
| Yanvar-dekabr | 647,7 | 2 284,0 | 2 188,2 | 15,1 |

2023-cü ildə hər inək və camışdan orta hesabla 1746 kiloqram (2022-ci ildə 1731 kq) süd sağılmışdır.

İlkin məlumatlara görə 2024-cü il yanvarın 1-i vəziyyətinə ölkə üzrə 7081,6 min baş qoyun və keçi, 2502,4 min baş iribuynuzlu mal-qara, o cümlədən 1235,5 min baş inək və camış mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 49,4 faizini inək və camışlar təşkil edir.

Cədvəl 31

**Bütün təsərrüfat kateqoriyaları üzrə heyvanların və quşların sayı, min baş**

| | Yanvarın 1-i vəziyyətinə | | Əvvəlki ilin müvafiq dövrünə nisbətən | |
|---|---|---|---|---|
| | **2024-cü il** | **2023-cü il** | **%** | **+, -** |
| İribuynuzlu mal-qara | 2 502,4 | 2 618,1 | 95,6 | -115,7 |
| o cümlədən: inək və camışlar | 1 235,5 | 1 288,8 | 95,9 | -53,3 |
| Qoyun və keçilər | 7 081,6 | 7 751,7 | 91,4 | -670,1 |
| Donuzlar, baş | 4 469 | 5 130 | 87,1 | -661 |
| Quşlar (müəssisələr üzrə) | 11 647,5 | 11 635,5 | 100,1 | 12,0 |
| ondan quşçuluq müəssisələri üzrə | 11 265,0 | 10 886,6 | 103,5 | 378,4 |

2023-cü ildə quşçuluq müəssisələrində diri çəkidə 76,0 min ton quş əti və 1053,5 milyon ədəd yumurta istehsal olunmuşdur. Ümumilikdə bu müəssisələr üzrə cəmi quşların sayı 11265,0 min baş olmuş, hər yumurtlayan toyuqdan orta hesabla 244 ədəd yumurta alınmışdır.

# Nəqliyyat

2023-cü ildə yük və sərnişin daşımaları əvvəlki illə müqayisədə müvafiq olaraq 5,3 faiz və 18,7 faiz artmışdır.

Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 230,2 milyon ton yük daşınmışdır. Yüklərin 3,9 faizi dəniz, 7,9 faizi dəmir yolu, 0,1 faizi hava, 58,4 faizi avtomobil nəqliyyatı, 29,7 faizi isə boru kəməri ilə daşınmışdır.

Qrafik 10

**Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu,**
faizlə




Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 5,4 faiz artmış, daşınmış yüklərin ümumi həcmində bu sektorun xüsusi çəkisi 78,2 faiz təşkil etmişdir.

2023-cü ildə nəqliyyatçılar 1923,6 milyon sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 88,1 faizi avtomobil nəqliyyatı, 11,4 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 2023-cü ildə 18,3 milyon ton yük, 7107,5 min sərnişin daşınmış, 2022-ci illə müqayisədə yük daşınmasında 2,6 faiz azalma, sərnişin daşınmasında isə 38,4 faiz artım müşahidə olunmuşdur.

Orta hesabla sutkada 400 vaqon yüklənmiş, 424 vaqon isə boşaldılmışdır.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 20,2 min ton, Qərb istiqaməti üzrə 3,1 min ton, Cənub istiqaməti üzrə isə 0,7 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatı** ilə 2023-cü ildə daşınmış yüklərin həcmi 9010,8 min ton təşkil etmiş və əvvəlki ilə nisbətən 19,8 faiz artmışdır. Yüklərin 54,4 faizini neft yükləri təşkil etmişdir.

Dəniz limanları tərəfindən 13375,6 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilmiş və yüklərin 11048,8 min tonunu və ya 82,6 faizini tranzit yüklər təşkil etmişdir.

2024-cü il yanvar ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 463,1 min ton olmuşdur.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2022-ci ilə nisbətən 10,7 faiz artaraq 23,7 min nəfər olmuşdur.

Qrafik 11

**Nəqliyyat sektorunda daşınmış yüklərin həcmi, min ton**



Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan **avtomobil nəqliyyatı** ilə 2023-cü ildə 134,2 milyon ton yük, 1694,1 milyon sərnişin daşınmış və əvvəlki illə müqayisədə müvafiq olaraq 6,5 faiz və 20,6 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 94,4 faizi avtobus, 5,6 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 7,3 faiz, sərnişin dövriyyəsi isə 21,4 faiz artmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 5,2 faiz artaraq 219,5 milyon nəfər olmuşdur.

**Hava nəqliyyatı** ilə 2911,8 min və ya 29,2 faiz çox sərnişin daşınmış, daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 16,7 faiz azalaraq 338,8 min ton olmuşdur.

**Magistral neft kəmərləri** ilə 39753,2 min ton neft nəql edilmişdir. Nəqletmənin 75,9 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və il ərzində bu kəmər vasitəsilə 30191,6 min ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 82,6 faizini və ya 24950,9 min tonunu Azərbaycanda hasil edilən neft, 17,4 faizini və ya 5240,7 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil etmişdir.

**Magistral qaz kəmərləri** ilə 39806,9 milyon kub-metr qaz nəql edilmiş və əvvəlki ilə nisbətən 1,4 faiz artım müşahidə olunmuşdur. Qazın nəqlinin 54,8 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 21800,1 milyon kub-metr qaz ötürülmüşdür.

2023-cü ilin yanvar-noyabr aylarında nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 29972,8 min ton olmuşdur. Yüklərin 13575,9 min tonu və ya 45,3 faizi dəmir yolu nəqliyyatı, 8578,2 min tonu və ya 28,6 faizi avtomobil nəqliyyatı, 7818,7 min tonu və ya 26,1 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhlizlər vasitəsilə daşınmış yüklərin 56,7 faizini və ya 16983,8 min tonunu tranzit yüklər təşkil etmişdir.

## İnformasiya və rabitə

Bu sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən 2023-cü il ərzində əvvəlki illə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 16,3 faiz artaraq 3206,5 milyon manat təşkil etmişdir ki, onun da 71,8 faizi əhali tərəfindən istehlak olunmuşdur.

Xidmətlərdən əldə edilən gəlirin 36,1 faizi və ya 1158,5 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

## İstehlak bazarı

2023-cü ildə istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 72,5 milyard manat olmaqla 2022-ci ilə nisbətən müqayisəli qiymətlərlə 5,5 faiz artmışdır.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2022-ci illə müqayisədə 5,3 faiz artaraq 69,7 milyard manata bərabər olmuş, onun 49,5 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

Cədvəl 32

**İstehlak bazarı üzrə əsas göstəricilər**

| | 2023-cü il, milyon manat | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış malların və göstərilmiş xidmətlərin ümumi dəyəri** | **72 450,8** | **105,5** |
| o cümlədən: dövlət mülkiyyəti üzrə | 2 740,3 | 110,8 |
| qeyri-dövlət mülkiyyəti üzrə | 69 710,5 | 105,3 |
| ondan: fərdi sahibkarlar üzrə | 34 530,7 | 104,7 |

Hesabat ilində bir istehlakçı orta hesabla ayda 594,6 manat və ya 2022-ci illə müqayisədə nominal ifadədə 74,5 manat çox vəsait xərcləmişdir.

# Əmtəə bazarı

2023-cü ildə pərakəndə ticarət şəbəkəsində istehlakçılara 59,0 milyard manatlıq, o cümlədən 33,0 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 26,0 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. 2022-ci illə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,7 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,5 faiz, qeyri-ərzaq malları üzrə 5,2 faiz artmışdır.

Cədvəl 33

**Pərakəndə ticarət dövriyyəsinin makrostrukturu**

| | 2023-cü il, milyon manat | Ümumi yekunda xüsusi çəkisi, faizlə | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **58 997,7** | **100,0** | **103,7** |
| o cümlədən: ərzaq məhsulları | 30 439,3 | 51,6 | 102,7 |
| içkilər və tütün məmulatları | 2 574,1 | 4,4 | 100,1 |
| qeyri-ərzaq malları | 25 984,3 | 44,0 | 105,2 |

Hesabat ilində əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 484,2 manat və ya 2022-ci illə müqayisədə nominal ifadədə 53,5 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 270,9 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 213,3 manatlıq qeyri-ərzaq malları almışdır.

Cədvəl 34

## Pərakəndə ticarət dövriyyəsinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən | |
| | | ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | qeyri-ərzaq malları üzrə |
| **2022-ci il** | | | |
| Yanvar | 102,9 | 102,5 | 103,5 |
| Yanvar-fevral | 103,0 | 102,6 | 103,5 |
| Yanvar-mart | 103,1 | 102,6 | 103,7 |
| Yanvar-aprel | 103,0 | 102,5 | 103,7 |
| Yanvar-may | 103,1 | 102,5 | 103,8 |
| Yanvar-iyun | 102,9 | 102,3 | 103,6 |
| Yanvar-iyul | 102,9 | 102,3 | 103,7 |
| Yanvar-avqust | 102,8 | 102,2 | 103,6 |
| Yanvar-sentyabr | 102,9 | 102,3 | 103,6 |
| Yanvar-oktyabr | 102,9 | 102,2 | 103,6 |
| Yanvar-noyabr | 103,0 | 102,2 | 103,8 |
| Yanvar-dekabr | 103,1 | 102,3 | 104,0 |
| **2023-cü il** | | | |
| Yanvar | 102,9 | 102,2 | 103,6 |
| Yanvar-fevral | 102,8 | 102,2 | 103,5 |
| Yanvar-mart | 103,0 | 102,1 | 104,1 |
| Yanvar-aprel | 102,9 | 102,1 | 104,0 |
| Yanvar-may | 102.9 | 102,0 | 104,1 |
| Yanvar-iyun | 103,0 | 102,1 | 104,2 |
| Yanvar-iyul | 103,1 | 102,0 | 104,3 |
| Yanvar-avqust | 103,2 | 102,1 | 104,5 |
| Yanvar-sentyabr | 103,3 | 102,0 | 104,8 |
| Yanvar-oktyabr | 103,4 | 102,2 | 104,9 |
| Yanvar-noyabr | 103,6 | 102,4 | 105,1 |
| Yanvar-dekabr | 103,7 | 102,5 | 105,2 |

Cədvəl 35

## Pərakəndə ticarət dövriyyəsinin mal qrupları üzrə strukturu

| | 2023-cü il, milyon manat | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **58 997,7** | **103,7** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 33 013,4 | 102,5 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 8 408,7 | 105,5 |
| elektrik malları və mebellər | 2 734,0 | 104,0 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 668,5 | 116,0 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 1 312,4 | 95,2 |
| avtomobil benzini və dizel yanacağı | 3 063,4 | 108,1 |
| digər qeyri-ərzaq malları | 9 797,3 | 105,0 |

Hesabat ilində istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 56,0 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 14,3 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,2 faizi avtomobil benzini və dizel yanacağının, 4,6 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,1 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,6 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

Qrafik 12

**2023-cü ildə pərakəndə ticarət dövriyyəsinin mal qrupları üzrə strukturu**



Cədvəl 36

## Əmtəə bazarı üzrə əsas göstəricilər

| | 2023-cü ildə, milyon manat | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **58 997,7** | **103,7** |
| o cümlədən: müəssisələr üzrə | 15 310,1 | 103,1 |
| fərdi sahibkarlar üzrə | 30 773,3 | 103,6 |
| bazar və yarmarkalar üzrə | 12 914,3 | 104,3 |

Qrafik 13

## 2023-cü ildə pərakəndə ticarət dövriyyəsinin strukturu



# İctimai iaşə xidmətləri

2023-cü ildə ictimai iaşə dövriyyəsi 2022-ci illə müqayisədə real ifadədə 15,2 faiz artaraq 2041,5 milyon manat olmuşdur.

Cədvəl 37

**İctimai iaşə dövriyyəsi**

| | 2023-cü ildə, min manat | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|
| **Cəmi** | **2 041 516,9** | **115,2** |
| o cümlədən: dövlət | 19 511,6 | 164,9 |
| qeyri-dövlət | 2 022 005,3 | 114,9 |
| ondan: fiziki şəxslər | 997 926,2 | 114,2 |

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 50,6 faizi hüquqi şəxslərin, 49,4 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür. Hüquqi şəxslər üzrə dövriyyə 2022-ci illə müqayisədə 15,6 faiz artaraq 1024,1 milyon manat olmuşdur.

# Əhaliyə göstərilən ödənişli xidmətlər

2023-cü ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2022-ci illə müqayisədə real ifadədə 14,0 faiz artaraq 11411,6 milyon manat olmuşdur. Hüquqi şəxslər tərəfindən əhaliyə 8652,1 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 75,8 faizini təşkil etmişdir.

Cədvəl 38

**Ödənişli xidmətlərin göstərilməsi**

| | 2023-cü ildə, milyon manat | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|
| **Ödənişli xidmətlərin ümumi dəyəri - cəmi** | **11 411,6** | **114,0** |
| o cümlədən: dövlət | 2 559,6 | 112,7 |
| qeyri-dövlət | 8 852,0 | 114,3 |
| ondan: fiziki şəxslər | 2 759,5 | 114,2 |

2023-cü ildə hər bir ölkə sakini orta hesabla 1123,9 manatlıq və ya 2022-ci illə müqayisədə nominal ifadədə 204,8 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

Cədvəl 39

## Əhaliyə göstərilən ödənişli xidmətlərin indeksləri

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | o cümlədən | |
| | | hüquqi şəxslər üzrə | fiziki şəxslər üzrə |
| **2022-ci il** | | | |
| Yanvar | 106,6 | 106,8 | 105,7 |
| Yanvar-fevral | 105,0 | 104,5 | 106,6 |
| Yanvar-mart | 105,2 | 104,7 | 106,6 |
| Yanvar-aprel | 106,9 | 106,1 | 109,4 |
| Yanvar-may | 108,1 | 106,0 | 114,7 |
| Yanvar-iyun | 107,4 | 105,6 | 113,4 |
| Yanvar-iyul | 107,2 | 105,7 | 112,2 |
| Yanvar-avqust | 107,3 | 106,3 | 110,8 |
| Yanvar-sentyabr | 107,8 | 107,2 | 109,6 |
| Yanvar-oktyabr | 106,9 | 106,7 | 107,5 |
| Yanvar-noyabr | 107,3 | 107,4 | 106,7 |
| Yanvar-dekabr | 108,0 | 108,0 | 108,0 |
| **2023-cü il** | | | |
| Yanvar | 108,5 | 110,2 | 103,4 |
| Yanvar-fevral | 111,1 | 112,3 | 107,4 |
| Yanvar-mart | 111,6 | 113,0 | 107,5 |
| Yanvar-aprel | 111,9 | 113,4 | 107,4 |
| Yanvar-may | 113,8 | 114,9 | 110,5 |
| Yanvar-iyun | 115,1 | 115,3 | 114,4 |
| Yanvar-iyul | 115,2 | 114,5 | 117,1 |
| Yanvar-avqust | 115,2 | 114,4 | 117,8 |
| Yanvar-sentyabr | 115,3 | 114,5 | 117,9 |
| Yanvar-oktyabr | 115,3 | 114,7 | 117,1 |
| Yanvar-noyabr | 114,6 | 114,1 | 116,0 |
| Yanvar-dekabr | 114,0 | 113,9 | 114,2 |

Qrafik 14

**Əhaliyə göstərilən ödənişli xidmətlər üzrə qiymət və fiziki həcm indeksləri**
(əvvəlki aya nisbətən, faizlə)



# Qiymət indeksləri

Cədvəl 40

| | 2023-cü ilin dekabr ayı 2023-cü ilin noyabr ayına nisbətən, faizlə | 2023-cü ilin dekabr ayı 2022-ci ilin dekabr ayına nisbətən, faizlə | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| İstehlak qiymətləri indeksi | 100,5 | 102,1 | 108,8 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi | 95,8 | 98,5 | 89,0 |
| o cümlədən: neft-qaz sənayesi | 94,5 | 97,6 | 83,7 |
| qeyri neft-qaz sənayesi | 100,1 | 99,9 | 102,9 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi | 101,9 | 104,9 | 108,1 |
| Nəqliyyat və anbar təsərrüfatı xidmətlərinin qiymət indeksi | 99,4 | 100,6 | 108,3 |
| Poçt və kuryer xidmətlərinin qiymət indeksi | 100,0 | 101,3 | 101,1 |
| Rabitə xidmətlərinin qiymət indeksi | 100,2 | 100,4 | 100,0 |
| İdxal olunan məhsulların qiymət indeksi | 102,2* | 115,3** | 116,8*** |
| İxrac olunan məhsulların qiymət indeksi | 101,4* | 75,8** | 72,0*** |
| o cümlədən: qeyri neft-qaz məhsulları | 101,9* | 110,5** | 105,1*** |

*2023-cü ilin noyabr ayı 2023-cü ilin oktyabr ayına nisbətən
**2023-cü ilin noyabr ayı 2022-ci ilin noyabr ayına nisbətən
***2023-cü ilin yanvar-noyabr ayları 2022-ci ilin yanvar-noyabr aylarına nisbətən

Qrafik 15

## İstehlak və istehsalçı qiymət indeksləri, faizlə



Qrafik 16

**İstehlak qiymətləri indeksi və sənaye məhsullarının istehsalçı qiymət indeksi**

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




## İstehlak qiymətləri indeksi

2023-cü ilin dekabr ayında istehlak qiymətləri indeksi noyabr ayı ilə müqayisədə 100,5 faiz, 2023-cü ildə əvvəlki illə müqayisədə isə 108,8 faiz təşkil etmişdir.

Cədvəl 41

**İstehlak qiymətləri indeksinin dəyişməsi**

| | Cəmi məhsullar və xidmətlər | | | Ərzaq məhsulları, içkilər və tütün məmulatları | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2022-ci il** | | | | | | |
| Yanvar | 101,6 | 112,5 | 112,5 | 102,6 | 117,1 | 117,1 |
| Fevral | 101,1 | 111,9 | 112,2 | 102,1 | 117,2 | 117,2 |
| Mart | 101,1 | 112,1 | 112,2 | 101,5 | 116,8 | 117,0 |
| **I rüb** | **104,4** | - | **112,2** | **107,0** | - | **117,0** |
| Aprel | 101,0 | 113,0 | 112,4 | 101,7 | 118,4 | 117,4 |
| May | 100,7 | 113,7 | 112,6 | 101,0 | 120,2 | 117,9 |
| İyun | 99,9 | 114,2 | 112,9 | 99,0 | 120,6 | 118,4 |
| **II rüb** | **102,6** | - | **113,6** | **103,8** | - | **119,7** |

…ardı...

| | Cəmi məhsullar və xidmətlər | | | Ərzaq məhsulları, içkilər və tütün məmulatları | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2022-ci il** | | | | | | |
| İyul | 100,5 | 113,7 | 113,0 | 100,1 | 120,3 | 118,7 |
| Avqust | 100,9 | 114,2 | 113,2 | 101,2 | 120,8 | 118,9 |
| Sentyabr | 103,1 | 115,6 | 113,4 | 103,4 | 121,8 | 119,3 |
| **III rüb** | **102,3** | - | **114,5** | **101,7** | - | **121,0** |
| Oktyabr | 101,6 | 115,6 | 113,7 | 102,2 | 121,0 | 119,4 |
| Noyabr | 101,0 | 115,1 | 113,8 | 101,2 | 120,1 | 119,5 |
| Dekabr | 101,0 | 114,4 | 113,9 | 101,7 | 119,0 | 119,5 |
| **IV rüb** | **105,0** | - | **115,0** | **106,3** | - | **120,1** |
| **2023-cü il** | | | | | | |
| Yanvar | 101,0 | 113,6 | 113,6 | 101,2 | 117,5 | 117,5 |
| Fevral | 101,5 | 114,1 | 113,9 | 101,8 | 117,1 | 117,3 |
| Mart | 100,7 | 113,6 | 113,8 | 101,3 | 116,8 | 117,1 |
| **I rüb** | **103,2** | - | **113,8** | **104,4** | - | **117,1** |
| Aprel | 100,3 | 112,8 | 113,5 | 100,3 | 115,1 | 116,6 |
| May | 99,6 | 111,5 | 113,1 | 98,9 | 112,7 | 115,8 |
| Iyun | 99,1 | 110,6 | 112,7 | 97,9 | 111,5 | 115,1 |
| **II rüb** | **100,7** | - | **111,6** | **100,2** | - | **113,1** |
| İyul | 99,3 | 109,4 | 112,2 | 98,5 | 109,7 | 114,3 |
| Avqust | 99,6 | 108,0 | 111,7 | 99,1 | 107,4 | 113,4 |
| Sentyabr | 100,3 | 105,1 | 110,9 | 100,6 | 104,5 | 112,4 |
| **III rüb** | **98,5** | - | **107,5** | **96,3** | - | **107,2** |
| Oktyabr | 100,4 | 103,9 | 110,2 | 100,8 | 103,1 | 111,4 |
| Noyabr | 99,8 | 102,6 | 109,4 | 99,6 | 101,5 | 110,4 |
| Dekabr | 100,5 | 102,1 | 108,8 | 101,0 | 100,8 | 109,6 |
| **IV rüb** | **100,5** | - | **102,9** | **101,0** | - | **101,8** |

...sonu

| | Qeyri-ərzaq məhsulları | | | Xidmətlər | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2022-ci il** | | | | | | |
| Yanvar | 100,8 | 105,9 | 105,9 | 101,0 | 111,1 | 111,1 |
| Fevral | 100,3 | 106,0 | 106,0 | 100,4 | 109,3 | 110,2 |
| Mart | 100,8 | 106,6 | 106,2 | 100,8 | 110,0 | 110,1 |
| **I rüb** | **101,9** | - | **106,2** | **102,6** | - | **110,1** |
| Aprel | 100,6 | 107,1 | 106,4 | 100,4 | 110,2 | 110,2 |
| May | 100,7 | 107,1 | 106,6 | 100,5 | 110,3 | 110,2 |
| İyun | 100,5 | 107,4 | 106,7 | 100,7 | 110,9 | 110,3 |
| **II rüb** | **101,9** | - | **107,2** | **101,6** | - | **110,5** |
| İyul | 101,4 | 108,6 | 107,0 | 100,4 | 108,9 | 110,1 |
| Avqust | 100,6 | 108,9 | 107,2 | 100,7 | 109,5 | 110,0 |
| Sentyabr | 102,4 | 110,5 | 107,6 | 103,3 | 111,4 | 110,2 |
| **III rüb** | **103,1** | - | **109,3** | **102,5** | - | **110,0** |
| Oktyabr | 101,3 | 110,9 | 107,9 | 100,9 | 112,0 | 110,4 |
| Noyabr | 101,6 | 112,1 | 108,3 | 100,4 | 110,7 | 110,4 |
| Dekabr | 100,5 | 111,9 | 108,6 | 100,4 | 110,2 | 110,4 |
| **IV rüb** | **104,3** | - | **111,7** | **103,8** | - | **111,0** |
| **2023-cü il** | | | | | | |
| Yanvar | 101,1 | 112,2 | 112,2 | 100,5 | 109,7 | 109,7 |
| Fevral | 100,4 | 112,2 | 112,2 | 102,0 | 111,4 | 110,6 |
| Mart | 100,3 | 111,6 | 112,0 | 100,2 | 110,8 | 110,6 |
| **I rüb** | **102,2** | - | **112,0** | **102,3** | - | **110,6** |
| Aprel | 100,3 | 111,3 | 111,8 | 100,4 | 110,7 | 110,7 |
| May | 100,1 | 110,7 | 111,6 | 100,3 | 110,5 | 110,6 |
| Iyun | 100,1 | 110,3 | 111,4 | 100,1 | 109,8 | 110,5 |
| **II rüb** | **100,8** | - | **110,8** | **101,3** | - | **110,3** |
| İyul | 100,0 | 108,8 | 111,0 | 100,1 | 109,6 | 110,4 |
| Avqust | 100,0 | 108,3 | 110,6 | 100,1 | 108,9 | 110,2 |
| Sentyabr | 100,1 | 105,9 | 110,1 | 100,0 | 105,4 | 109,6 |
| **III rüb** | **100,2** | - | **107,6** | **100,3** | - | **107,9** |
| Oktyabr | 100,1 | 104,7 | 109,5 | 100,0 | 104,5 | 109,1 |
| Noyabr | 100,0 | 103,1 | 108,9 | 99,9 | 104,0 | 108,6 |
| Dekabr | 100,0 | 102,7 | 108,4 | 100,1 | 103,7 | 108,2 |
| **IV rüb** | **100,2** | - | **103,5** | **100,1** | - | **104,0** |

Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan və bazis inflyasiyası kimi qəbul edilmiş istehlak qiymətlərinin bazis indeksi 2023-cü ilin dekabr ayında noyabr ayı ilə müqayisədə 100,0 faiz, əvvəlki ilin dekabr ayı ilə müqayisədə 102,3 faiz, 2023-cü ildə əvvəlki illə müqayisədə isə 108,8 faiz təşkil etmişdir.

Qrafik 17

**İstehlak qiymətləri indeksi və istehlak qiymətlərinin bazis indeksinin dəyişməsi** (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




2023-cü ilin dekabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi noyabr ayı ilə müqayisədə 101,0 faiz, 2023-cü ildə əvvəlki illə müqayisədə isə 109,6 faiz təşkil etmişdir.

Cədvəl 42

## Ərzaq məhsulları, içkilər və tütün məmulatlarının istehlak qiymətləri indeksləri

| | 2023-cü ilin dekabr ayı 2023-cü ilin noyabr ayına nisbətən, faizlə | 2023-cü ilin dekabr ayı 2022-ci ilin dekabr ayına nisbətən, faizlə | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə | Məlumat üçün: 2022-ci il 2021-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| Çörək, çörək məmulatları və yarmalar | 99,6 | 96,2 | 107,6 | 121,6 |
| Ət və ət məhsulları | 99,5 | 105,5 | 112,8 | 112,1 |
| Balıq və balıq məhsulları | 101,0 | 100,4 | 106,1 | 114,8 |
| Süd və süd məhsulları, yumurta | 100,7 | 100,5 | 107,0 | 111,3 |
| Kərə və bitki yağları | 99,5 | 93,8 | 102,3 | 115,7 |
| Meyvələr | 103,4 | 107,8 | 108,5 | 116,5 |
| Tərəvəzlər | 105,7 | 94,1 | 115,5 | 156,1 |
| Qənd, cem, bal, şokolad və konfetlər | 100,0 | 101,2 | 108,6 | 113,1 |
| Digər kateqoriyalara aid edilməyən ərzaq məhsulları | 99,8 | 102,5 | 111,1 | 113,7 |
| Çay, qəhvə, kakao | 99,9 | 101,8 | 112,1 | 108,8 |
| Mineral sular, sərinləşdirici içkilər və şirələr | 100,2 | 104,4 | 108,0 | 110,1 |
| Araq, brendi (konyak) | 100,0 | 100,8 | 102,4 | 105,9 |
| Tütün məmulatları | 100,0 | 105,6 | 104,9 | 106,9 |

2023-cü ilin dekabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi noyabr ayı ilə müqayisədə 100,0 faiz, 2023-cü ildə əvvəlki illə müqayisədə isə 108,4 faiz təşkil etmişdir.

Cədvəl 43

## Qeyri-ərzaq məhsullarının istehlak qiymətləri indeksləri

| | 2023-cü ilin dekabr ayı 2023-cü ilin noyabr ayına nisbətən, faizlə | 2023-cü ilin dekabr ayı 2022-ci ilin dekabr ayına nisbətən, faizlə | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə | Məlumat üçün: 2022-ci il 2021-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| Parçalar | 100,2 | 102,2 | 109,5 | 115,2 |
| Geyim | 100,1 | 101,8 | 106,6 | 107,7 |
| Ayaqqabı | 100,1 | 102,4 | 106,8 | 107,8 |
| İnşaat materialları | 100,0 | 99,1 | 103,1 | 112,8 |
| Mebel və ev əşyaları | 100,0 | 104,0 | 109,5 | 110,8 |
| Xalça və digər döşəmə örtükləri | 100,0 | 102,1 | 108,8 | 113,3 |
| Məişət cihazları | 99,9 | 102,5 | 106,0 | 107,1 |
| Kiçik elektrik cihazları | 99,9 | 101,7 | 105,9 | 108,6 |
| Şüşə məmulatları, yemək qabları və əşyaları | 100,2 | 102,9 | 107,4 | 111,5 |
| Evə qulluq etmək üçün lazım olan məhsullar (yuyucu vasitələr və s.) | 100,0 | 104,0 | 110,3 | 111,5 |
| Dərmanlar | 100,0 | 106,0 | 115,6 | 101,9 |
| Müalicə ləvazimatları və cihazları | 100,0 | 101,7 | 105,6 | 109,5 |
| Minik avtomobilləri | 100,1 | 101,1 | 102,0 | 103,9 |
| Velosipedlər | 99,6 | 100,7 | 106,2 | 108,5 |
| Minik avtomobilləri üçün ehtiyat hissələri | 100,2 | 101,4 | 106,5 | 112,6 |
| Yanacaq məhsulları (benzin və dizel yanacağı) | 100,0 | 100,0 | 104,3 | 104,5 |
| Telefon aparatları | 99,8 | 96,0 | 100,2 | 103,5 |
| Foto-kino avadanlıqları və optik cihazlar | 98,9 | 96,3 | 100,5 | 104,3 |
| Məlumatın işlənməsi üçün avadanlıqlar (fərdi kompüter, noutbuk, planşet) | 99,9 | 98,9 | 101,6 | 103,2 |
| Oyuncaqlar | 100,2 | 103,5 | 108,7 | 111,3 |
| Açıq havada idman, turizmlə məşğul olmaq və istirahət vaxtı istifadə etmək üçün əşyalar | 100,1 | 102,7 | 110,9 | 113,1 |
| Kitablar | 99,9 | 104,9 | 108,8 | 108,0 |
| Qəzetlər və digər dövri nəşrlər | 100,0 | 100,3 | 101,2 | 102,5 |
| Dəftərxana və şəkil çəkmək üçün ləvazimat | 99,8 | 100,0 | 111,6 | 138,2 |

…ardı...

| | 2023-cü ilin dekabr ayı 2023-cü ilin noyabr ayına nisbətən, faizlə | 2023-cü ilin dekabr ayı 2022-ci ilin dekabr ayına nisbətən, faizlə | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə | Məlumat üçün: 2022-ci il 2021-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| Şəxsi gigiyena əşyaları, saç qurutmaq üçün fenlər | 99,3 | 103,7 | 108,4 | 109,9 |
| Zərgərlik məmulatları | 100,3 | 103,8 | 108,6 | 110,4 |
| Sair şəxsi istifadə əşyaları | 100,1 | 102,3 | 108,1 | 110,7 |

2023-cü ilin dekabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi noyabr ayı ilə müqayisədə 100,1 faiz, 2023-cü ildə əvvəlki illə müqayisədə isə 108,2 faiz təşkil etmişdir

Cədvəl 44

## Əhaliyə göstərilmiş ödənişli xidmətlərin istehlak qiymətləri indeksləri

| | 2023-cü ilin dekabr ayı 2023-cü ilin noyabr ayına nisbətən, faizlə | 2023-cü ilin dekabr ayı 2022-ci ilin dekabr ayına nisbətən, faizlə | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə | Məlumat üçün: 2022-ci il 2021-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| Paltarların təmizlənməsi, təmiri və kirayəsi | 100,2 | 103,8 | 110,5 | 115,2 |
| Ayaqqabıların təmiri | 100,1 | 100,8 | 110,6 | 114,5 |
| İcarəçi tərəfindən ödənilmiş icarə haqqı | 100,4 | 107,1 | 113,3 | 112,3 |
| Soyuq su təchizatı xidməti | 100,0 | 100,0 | 100,0 | 104,3 |
| Zibilin daşınması xidməti | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Kanalizasiya xidməti | 100,0 | 100,0 | 100,0 | 104,3 |
| Elektrik enerjisi təchizatı xidməti | 100,0 | 100,0 | 100,0 | 110,2 |
| Təbii qaz təchizatı xidməti | 100,0 | 100,0 | 100,0 | 120,0 |
| Mərkəzi isitmə xidməti | 100,0 | 100,0 | 100,0 | 100,0 |

…ardı

| | 2023-cü ilin dekabr ayı 2023-cü ilin noyabr ayına nisbətən, faizlə | 2023-cü ilin dekabr ayı 2022-ci ilin dekabr ayına nisbətən, faizlə | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə | Məlumat üçün: 2022-ci il 2021-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| Mebel, ev əşyaları və döşəmə örtüklərinin təmiri | 100,2 | 102,8 | 107,4 | 113,3 |
| Məişət cihazlarının təmiri | 100,1 | 104,1 | 111,8 | 112,4 |
| Ev və məişət xidmətləri | 100,4 | 102,3 | 108,2 | 112,7 |
| Tibbi xidmətlər | 100,0 | 102,2 | 103,7 | 108,5 |
| Stomatoloji xidmətlər | 100,2 | 104,3 | 109,5 | 112,4 |
| Xəstəxana xidmətləri | 100,0 | 103,1 | 103,7 | 106,7 |
| Avtomobillərin təmiri | 100,2 | 102,5 | 108,4 | 111,7 |
| Dəmir yolu nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 102,6 | 101,8 | 101,9 |
| Metro nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 133,3 | 130,6 | 100,0 |
| Avtomobil nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,1 | 118,4 | 116,9 | 100,3 |
| Hava nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 94,9 | 70,4 | 110,3 | 126,8 |
| Dəniz nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Poçt xidmətləri | 100,0 | 100,0 | 100,0 | 157,9 |
| Telefon rabitəsi xidmətləri | 100,0 | 103,2 | 102,2 | 99,8 |
| Kompleks istirahətin təşkili üzrə xidmətlər | 100,6 | 102,9 | 110,1 | 103,8 |
| Ödənişli ali təhsil haqqı | 100,0 | 101,0 | 101,1 | 102,0 |
| Restoran və kafelər tərəfindən yeməklə təmin edilmə xidmətləri | 100,2 | 103,0 | 111,7 | 118,2 |
| Mehmanxana xidməti | 99,8 | 102,1 | 106,7 | 106,8 |
| Bərbərxana və kosmetoloji xidmətlər | 100,4 | 104,2 | 110,0 | 111,9 |
| Nəqliyyat vasitələrinin sığortası haqqı | 100,0 | 100,0 | 100,0 | 100,0 |

Cədvəl 45

**Ölkənin iqtisadi rayonları üzrə 2023-cü ilin dekabr ayında istehlak qiymətləri indeksləri** (əvvəlki aya nisbətən, faizlə)

| | Cəmi məhsullar və xidmətlər | Ərzaq məhsulları, içkilər və tütün məmulatları | Qeyri-ərzaq məhsulları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 100,4 | 101,0 | 99,7 | 100,1 |
| Naxçıvan Muxtar Respublikası | 100,2 | 100,1 | 100,9 | 100,0 |
| Sentyabr | 775,0 | 111,3 | 945,9 | 115,8 |
| **III rüb** | **2 226,7** | **108,4** | **2 779,8** | **115,7** |
| **Yanvar-sentyabr** | **6 416,3** | **107,8** | **8 107,9** | **115,3** |
| Oktyabr | 810,5 | 100,3 | 979,2 | 115,6 |
| Noyabr | 902,8 | 110,2 | 1 028,4 | 110,5 |
| Dekabr | 1 123,8 | 114,1 | 1 296,1 | 111,2 |
| **IV rüb** | **2 837,1** | **108,6** | **3 303,7** | **112,0** |
| **İllik** | **9 253,4** | **108,0** | **11 411,6** | **114,0** |

# Dövlət büdcəsinin aylıq və rüblük icrası

| | Dövlət büdcəsinin gəlirləri | | Dövlət büdcəsinin xərcləri | |
|---|---|---|---|---|
| | icra, milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | icra, milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2022-ci il** | | | | |
| Yanvar | 2746,8 | 118,4 | 983,4 | 79,8 |
| Fevral | 1879,1 | 110,0 | 1701,8 | 76,0 |
| Mart | 2383,5 | 139,6 | 2944,3 | 143,3 |
| **I rüb** | **7009,4** | **122,2** | **5629,5** | **101,9** |
| Aprel | 3678,0 | 147,3 | 2539,2 | 126,7 |
| May | 1754,7 | 116,8 | 2281,2 | 124,1 |
| İyun | 1763,3 | 87,3 | 2486,7 | 111,8 |
| **II rüb** | **7196,0** | **119,6** | **7307,1** | **120,4** |
| İyul | 3697,8 | 161,2 | 2398,2 | 114,7 |
| Avqust | 2281,4 | 120,8 | 2817,1 | 144,8 |
| Sentyabr | 2216,8 | 114,6 | 2318,8 | 111,2 |
| **III rüb** | **8196,0** | **134,0** | **7534,1** | **123,1** |
| Oktyabr | 4627,6 | 195,9 | 2735,4 | 110,6 |
| Noyabr | 1949,0 | 78,2 | 2769,4 | 130,3 |
| Dekabr | 1701,6 | 46,4 | 6087,6 | 119,3 |
| **IV rüb** | **8278,2** | **97,1** | **11592,4** | **119,5** |
| **2023-cü il** | | | | |
| Yanvar | 4006,5 | 145,9 | 1457,9 | 148,3 |
| Fevral | 1870,9 | 99,6 | 2202,5 | 129,4 |
| Mart | 2412,6 | 101,2 | 2906,6 | 98,7 |
| **I rüb** | **8290,0** | **118,3** | **6567,0** | **116,7** |
| Aprel | 3874,9 | 105,4 | 2362,8 | 93,1 |
| May | 1796,1 | 102,4 | 2212,6 | 97,0 |
| İyun | 1518,9 | 86,1 | 2920,9 | 117,5 |
| **II rüb** | **7189,9** | **99,9** | **7496,3** | **102,6** |
| İyul | 3286,7 | 88,9 | 3557,2 | 148,3 |
| Avqust | 1664,5 | 73,0 | 3029,2 | 107,5 |
| Sentyabr | 1645,3 | 74,2 | 2564,8 | 110,6 |
| **III rüb** | **6596,5** | **80,5** | **9151,2** | **121,5** |
| Oktyabr | 4336,4 | 93,7 | 3416,0 | 124,9 |
| Noyabr | 3228,8 | 165,7 | 2524,7 | 91,2 |

Cədvəl 90

## 2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri*

min ABŞ dolları

| Ölkələrin adı | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **Cəmi** | **47325669,8** | **15812680,8** | **31512989,0** |
| o cümlədən: | | | |
| İtaliya | 14599772,3 | 419842,3 | 14179930,0 |
| Türkiyə | 7197416,8 | 2092103,1 | 5105313,7 |
| Rusiya | 3952067,1 | 2868424,5 | 1083642,6 |
| Çin | 2832129,0 | 2756226,7 | 75902,3 |
| Almaniya | 1633808,9 | 842719,5 | 791089,4 |
| İsrail | 1419337,0 | 32835,8 | 1386501,2 |
| Yunanıstan | 1290501,4 | 22705,7 | 1267795,7 |
| Hindistan | 1107999,5 | 183463,7 | 924535,8 |
| Amerika Birləşmiş Ştatları | 835081,3 | 824238,7 | 10842,6 |
| Gürcüstan | 812190,5 | 116047,4 | 696143,1 |
| İspaniya | 809218,2 | 94012,2 | 715206,0 |
| Çexiya | 762500,6 | 78474,6 | 684026,0 |
| Birləşmiş Krallıq | 758286,8 | 311730,3 | 446556,5 |
| Türkmənistan | 738966,2 | 661633,6 | 77332,6 |
| Rumıniya | 622239,9 | 60491,1 | 561748,8 |
| Xorvatiya | 539473,8 | 4456,6 | 535017,2 |
| Fransa | 514207,1 | 382239,8 | 131967,3 |
| Vyetnam | 475291,6 | 129589,5 | 345702,1 |
| Bolqarıstan | 455611,3 | 26735,8 | 428875,5 |
| İran | 437216,1 | 423944,0 | 13272,1 |
| Yaponiya | 414877,3 | 399594,6 | 15282,7 |
| İrlandiya | 399382,5 | 29653,1 | 369729,4 |
| Koreya | 395242,3 | 394767,2 | 475,1 |
| Ukrayna | 320310,9 | 210467,6 | 109843,3 |
| Qazaxıstan | 300796,1 | 207764,9 | 93031,2 |
| Digər ölkələr | 3701745,3 | 2238518,5 | 1463226,8 |

*Gömrük məlumatı

Cədvəl 91

## Azərbaycanın xarici ticarət saldosu

milyon ABŞ dolları

| Dövr | 2023-cü il | | | 2022-ci il | | |
|---|---|---|---|---|---|---|
| | Xarici ticarət saldosu | o cümlədən: | | Xarici ticarət saldosu | o cümlədən: | |
| | | MDB üzvü dövlətləri | digər ölkələr | | MDB üzvü dövlətləri | digər ölkələr |
| Yanvar | 465,2 | -321,3 | 786,5 | 2109,6 | -35,8 | 2145,4 |
| Fevral | 1405,5 | -251,2 | 1656,7 | 1898,2 | -63,4 | 1961,6 |
| Mart | 1842,6 | -321,0 | 2163,6 | 1058,3 | -137,6 | 1195,9 |
| **I rüb** | **3713,3** | **-893,5** | **4606,8** | **5066,1** | **-236,8** | **5302,9** |
| Aprel | 3575,6 | -283,2 | 3858,8 | 2726,4 | -247,8 | 2974,2 |
| May | 1988,3 | -281,1 | 2269,4 | 2496,6 | -295,8 | 2792,4 |
| İyun | 493,3 | -190,1 | 683,4 | 1841,8 | -226,2 | 2068,0 |
| **II rüb** | **6057,2** | **-754,4** | **6811,6** | **7064,8** | **-769,8** | **7834,6** |
| **I y/illik** | **9770,5** | **-1647,9** | **11418,4** | **12130,9** | **-1006,6** | **13137,5** |
| İyul | 1450,6 | -205,4 | 1656,0 | 2956,7 | -206,7 | 3163,4 |
| Avqust | 1983,1 | -279,6 | 2262,7 | 2328,1 | -295,8 | 2623,9 |
| Sentyabr | 670,0 | -235,7 | 905,7 | 1892,5 | -357,9 | 2250,4 |
| **III rüb** | **4103,7** | **-720,7** | **4824,4** | **7177,3** | **-860,4** | **8037,7** |
| **9 aylıq** | **13874,2** | **-2368,6** | **16242,8** | **19308,2** | **-1867,0** | **21175,2** |
| Oktyabr | 1296,8 | -160,4 | 1457,2 | 3868,8 | -294,7 | 4163,5 |
| Noyabr | 529,3 | -317,8 | 847,1 | 334,8 | -229,4 | 564,2 |
| Dekabr | | | | 94,9 | -387,1 | 482,0 |
| **IV rüb** | | | | **4298,5** | **-911,2** | **5209,7** |
| **İllik** | | | | **23606,7** | **-2778,2** | **26384,9** |

Cədvəl 92

## 2023-cü ilin yanvar-noyabr aylarında ixrac olunan mühüm növ məhsullar

| Malların adı | 2023-cü ilin yanvar-noyabr aylarında | | 2022-ci ilin yanvar-noyabr aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min ABŞ dolları) | miqdarı | məbləği |
| Təzə tərəvəz, ton | 159222,9 | 157177,7 | 104,2 | 95,3 |
| Təzə meyvə, ton | 394549,2 | 441454,3 | 122,0 | 115,9 |
| Kartof, ton | 71170,4 | 31053,8 | 91,0 | 88,5 |
| Çay, ton | 649,9 | 5906,2 | 37,8 | 53,8 |
| Bitki yağları, ton | 5018,7 | 8030,6 | 71,3 | 60,2 |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton | 2576,2 | 4256,3 | 140,3 | 120,3 |
| Şəkər, ton | 30409,4 | 22659,3 | 69,5 | 73,5 |
| Meyvə və tərəvəz konservləri, ton | 8989,1 | 11803,6 | 123,0 | 130,8 |
| Meyvə və tərəvəz şirələri, ton | 13660,7 | 17106,3 | 138,7 | 136,9 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl | 295,5 | 6524,5 | 113,7 | 140,7 |
| Tütün, ton | 2308,0 | 5028,3 | 36,6 | 26,7 |
| Bentonit gili, ton | 154939,2 | 12801,9 | 102,6 | 107,9 |
| Sement klinkerləri, ton | 748958,1 | 42291,6 | 117,6 | 140,1 |
| Mineral gübrələr, ton | 303437,2 | 72525,8 | 90,4 | 36,5 |
| Xam neft, min ton | 24199,5 | 15099942,9 | 99,5 | 82,4 |
| Xam neft, min ton (SOCAR və ABƏŞ-in məlumatlarına əsasən) | 21593,4 | 12914063,6 | 89,7 | 72,4 |
| Reaktiv mühərriklər üçün və digər məqsədlər üçün kerosin, ton | 98117,2 | 97776,7 | 91,0 | 80,8 |
| Ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar, ton | 696512,2 | 370771,6 | 150,4 | 156,5 |
| Maye qaz, ton | 9945,5 | 477,6 | 46,7 | 8,4 |
| Təbii qaz, milyon kub metr | 24379,9 | 12775690,0 | 130,7 | 86,3 |
| Təbii qaz, milyon kub metr (SOCAR və ABƏŞ-in məlumatlarına əsasən) | 21199,9 | 8822833,5 | 103,2 | 51,0 |
| Neft koksu, ton | 222356,2 | 57252,0 | 146,2 | 99,6 |
| Polietilen, ton | 139418,5 | 144960,3 | 132,6 | 110,3 |
| Polipropilen, ton | 162806,6 | 191160,1 | 173,6 | 148,0 |

…ardı

| Malların adı | 2023-cü ilin yanvar-noyabr aylarında | | 2022-ci ilin yanvar-noyabr aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min ABŞ dolları) | miqdarı | məbləği |
| Pambıq lifi, ton | 62173,7 | 111101,0 | 90,9 | 69,0 |
| Pambıq ipliyi, ton | 10827,7 | 30374,3 | 135,6 | 96,8 |
| Qara metallardan borular, ton | 21099,6 | 30095,2 | 84,9 | 113,1 |
| Qara metallardan yarımfabrikatlar, ton | 11552,9 | 6432,9 | 42,1 | 34,8 |
| Qara metaldan çubuqlar, ton | 55210,4 | 34747,7 | 81,4 | 71,4 |
| Emal olunmamış alüminium, ton | 32563,8 | 77267,6 | 80,4 | 67,8 |

Cədvəl 93

## 2023-cü ilin yanvar-noyabr aylarında idxal olunan mühüm növ məhsullar

| Malların adı | 2023-cü ilin yanvar-noyabr aylarında | | 2022-ci ilin yanvar-noyabr aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min ABŞ dolları) | miqdarı | məbləği |
| İribuynuzlu heyvan əti, ton | 7252,1 | 28397,9 | 185,3 | 165,2 |
| Quş əti və onun əlavə məhsulları, ton | 27179,0 | 42479,8 | 90,5 | 88,5 |
| Kərə yağı, digər süd yağları və pastaları, ton | 14916,2 | 83505,0 | 89,0 | 86,3 |
| Kartof, ton | 155509,2 | 44607,6 | 85,6 | 87,8 |
| Təzə tərəvəz, ton | 24941,2 | 14789,5 | 105,7 | 101,5 |
| Təzə meyvə, ton | 112687,0 | 114267,0 | 97,5 | 100,8 |
| Çay, ton | 12477,1 | 64771,5 | 94,8 | 94,1 |
| Buğda, ton | 1094975,2 | 283377,8 | 93,8 | 71,2 |
| Bitki yağları, ton | 114034,2 | 132640,9 | 107,0 | 72,3 |
| Xam şəkər, ton | 244562,2 | 155294,8 | 82,3 | 96,5 |
| Şokolad və şokolad məhsulları, ton | 27752,8 | 98427,9 | 113,7 | 118,4 |

…ardı

| Malların adı | 2023-cü ilin yanvar-noyabr aylarında | | 2022-ci ilin yanvar-noyabr aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min ABŞ dolları) | miqdarı | məbləği |
| Unlu qənnadı məmulatları, ton | 41370,0 | 103560,2 | 111,3 | 117,6 |
| Siqaretlər, milyon ədəd | 300,4 | 6507,8 | 166,3 | 180,4 |
| Sement, ton | 19081,7 | 4685,7 | 73,0 | 93,2 |
| Dərman vasitələri, ton | 24147,4 | 432875,3 | 100,9 | 93,4 |
| Mineral gübrələr, ton | 130029,0 | 67114,8 | 134,7 | 83,6 |
| Sintetik yuyucu vasitələr, ton | 83902,4 | 88170,3 | 108,1 | 113,1 |
| Polietilen, ton | 58565,2 | 73944,4 | 135,7 | 116,2 |
| Polipropilen, ton | 16962,6 | 24194,3 | 142,1 | 115,3 |
| Rezin şinlər, ədəd | 2352927 | 106386,0 | 118,6 | 120,1 |
| Polad prokatı, ton | 370568,2 | 299310,7 | 142,6 | 115,4 |
| Qara metallardan çubuqlar, ton | 67271,9 | 43606,5 | 101,3 | 79,5 |
| Qara metallardan künclüklər, ton | 29946,5 | 27708,8 | 128,9 | 112,0 |
| Qara metallardan borular, ton | 167169,4 | 257160,6 | 173,3 | 149,4 |
| Məişət kondisionerləri, ədəd | 190156 | 54662,2 | 94,7 | 85,0 |
| Məişət soyuducuları, ədəd | 36175 | 10653,1 | 159,6 | 130,5 |
| Paltaryuyan maşınlar, ədəd | 220564 | 52823,4 | 147,4 | 136,1 |
| Hesablama maşınları, blok və qurğuları, ədəd | 599562 | 178022,0 | 118,0 | 147,9 |
| Minik avtomobilləri, ədəd | 81824 | 1377362,7 | 132,8 | 185,4 |
| Avtobuslar, ədəd | 116 | 7524,9 | 31,0 | 14,8 |
| Yük avtomobilləri, ədəd | 6464 | 101463,5 | 141,9 | 106,4 |
| Oturacaq, ofis, mətbəx, yataq və digər mebellər, ədəd | 847600 | 78569,6 | 115,1 | 116,4 |

Cədvəl 94

## 2023-cü ilin yanvar-noyabr aylarında MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər
## (ötən ilin müvafiq dövrünə nisbətən faizlə, milli statistika xidmətlərinin məlumatlarına əsasən)

| | Azərbaycan | Ermənistan | Belarus | Qazaxıstan | Qırğızıstan | Moldova | Rusiya | Tacikistan | Türkmənistan | Özbəkistan | Ukrayna |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 100,8 | 109,2[1)] | 103,8 | 104,9[1)] | 104,4 | 99,6[1)] | 103,0[1)] | 108,3[1)2)] | 106,3 | 105,8[1)] | … |
| Sənaye məhsulunun ümumi həcmi | 99,0 | 102,1 | 107,9 | 104,3 | 101,8 | 96,1[3)] | 103,6 | 109,5 | … | 106,0 | … |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi | 88,3 | 101,7 | 105,9 | 97,5 | 109,2 | 113,8 | 102,7 | 100,6 | … | 112,3 | … |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 116,5 | 115,6 | 113,9 | 112,1[1)] | 117,8 | 97,9[1)] | 110,0[1)] | 116,5[1)] | … | 111,8[1)] | … |
| Ümumi istifadədə olan dəmir yolu ilə yük daşınması | 98,2 | 62,2 | … | 102,2 | 117,3 | 97,3[1)] | 100,1 | 105,9 | … | 100,5[1)] | … |
| Pərakəndə əmtəə dövriyyəsi | 103,6 | 113,3 | 108,2 | 107,7 | 109,4 | … | 105,9 | 114,6 | … | 108,0 | … |
| o cümlədən satış müəssisələrinin pərakəndə əmtəə dövriyyəsi | 103,5 | 113,9 | 108,7 | 111,7 | 110,5 | … | 106,2 | 101,0 | … | 110,2 | … |
| İstehlak qiymətlərinin indeksi | 109,4 | 102,2 | 105,1 | 115,0 | 111,1 | 114,3 | 105,7 | 103,6 | … | 110,1 | … |
| Əhalinin gəlirləri (faktiki qiymətlərlə) | 112,8[4)] | … | 113,4[3)] | … | … | … | 110,1* | … | … | … | … |
| Əhalinin mal alınması və xidmətlərə xərcləri (faktiki qiymətlərlə) | 115,7[4)] | … | … | … | … | … | 110,5* | … | … | … | … |
| Sərəncamda qalan real gəlirlər | 103,1[4)] | … | 106,1[3)] | … | … | … | 104,8* | … | … | … | … |
| İqtisadiyyatda işləyənlərin orta aylıq əməkhaqqı | 111,3[3)] | 115,5 | 116,5 | 117,1[1)] | 122,2[3)] | 117,8[1)] | 113,7[3)] | 115,2[1)] | … | 118,5[1)] | … |
| İşçi qüvvəsinin müayinəsi əsasında işsizlərin ümumi sayı | … | … | 95,2[1)] | … | … | … | 81,4[5)] | … | … | … | … |
| Məşğulluq xidməti orqanlarından rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayı ( dövrün sonuna) | … | 94,7 | 73,7 | 118,0 | 91,9 | 47,4 | 75,7[5)] | 87,5[1)] | … | … | … |

…ardı

## 2023-cü ilin yanvar-noyabr aylarında MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər
## (ötən ilin müvafiq dövrünə nisbətən faizlə, milli statistika xidmətlərinin məlumatlarına əsasən)

| | Azərbaycan | Ermə-nistan | Belarus | Qazaxıs-tan | Qırğızıs-tan | Moldova | Rusiya | Tacikis-tan | Türk-mənistan | Özbəkis-tan | Ukrayna |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İxrac (faktiki qiymətlərlə)-cəmi | 92,3[6)] | 144,7 | 107,2[3)] | 91,1[3)] | 129,6[3)] | 92,5[3)] | … | 86,5[3)] | … | 131,7[3)] | … |
| o cümlədən | | | | | | | | | | | |
| MDB dövlətlərinə | 100,1 | 151,2 | 108,5 | 106,2 | 83,1 | 94,0 | … | 72,7 | … | 100,2 | … |
| MDB üzvü olmayan dövlətlərə | 92,3 | 139,0 | 104,7 | 87,9 | 303,6 | 92,1 | … | 94,8 | … | 150,7 | … |
| İdxal (faktiki qiymətlərlə)- cəmi | 104,6[6)] | 141,0 | 116,6[3)] | 122,8[3)] | 123,8[3)] | 95,2[3)] | … | 110,5[3)] | … | 125,0[3)] | … |
| o cümlədən | | | | | | | | | | | |
| MDB dövlətlərinə | 111,3 | 129,1 | 101,3 | 91,2 | 90,0 | 68,4 | … | 95,3 | … | 111,8 | … |
| MDB üzvü olmayan dövlətlərdən | 102,6 | 147,1 | 143,2 | 147,5 | 145,7 | 104,1 | … | 132,4 | … | 132,6 | … |

1) 2023-cü ilin yanvar-sentyabr ayları 2022-ci ilin yanvar-sentyabr aylarına nisbətən.
2) İqtisadiyyatın sahələrinin qısamüddətli inkişaf gösrəicisi
3) 2023-cü ilin yanvar-oktyabr ayları 2022-ci ilin yanvar-oktyabr aylarına nisbətən.
4) Milli hesablar sisteminin metodologiyasına əsasən.
5) 2023-cü ilin noyabr ayı 2022-ci ilin noyabr ayına nisbətən.
6) 2023-cü ilin yanvar-oktyabr ayları 2022-ci ilin yanvar-oktyabr aylarına nisbətən. Müqayisəli qiymətlərlə verilir.
* Qiymətləndirmə.
Qeyd: Türkmənistan üzrə isə ölkənin dövlət orqanının saytından götürülmüşdür.2022-ci ilin dekadr ayından MDB Dövlətlərarası Statistika Komitəsi Ukrayna üzrə məlumatları əldə etmir.

# METODOLOJİ İZAHLAR

**Ümumi daxili məhsul (ÜDM)** milli hesablar sisteminin ən mühüm göstəricilərindən biridir. ÜDM həm istehsal, həm də xidmətlər sahələrində rezident vahidlərin iqtisadi fəaliyyətinin son nəticəsini xarakterizə edir və bu vahidlərin son istehlak üçün məhsul və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərlə ölçülür.

ÜDM ölkədə məhsul və xidmətlər istehsalçıları arasında bölüşdürülən ilkin gəlirlərin, yəni muzdlu işçilərə verilən əməkhaqqının, istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği, başqa sözlə desək gəlirlər üsulu ilə də müəyyənləşdirilə bilər.

Ümumi daxili məhsuldan istifadə edilməsi (xərclər üsulu) məhsul və xidmətlərin son istehlakını, əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsini və məhsul və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

**Məhsula və idxala xalis vergilər** - subsidiyalar çıxılmaqla məhsula və idxala vergilərdir.

**Məhsula görə vergi və idxal (ixrac) vergiləri**. Məhsula görə vergilər adətən məhsul və ya xidmət vahidinə görə, yəni rezidentlər tərəfindən istehsal edilən, satılan və ya idxal edilən məhsul və xidmətlərin miqdarına, yaxud dəyərinə mütənasib olaraq alınan vergilərdir. Onlara əsasən aşağıdakı vergilər aid edilir:

-əlavə dəyər vergisi (ƏDV);

-aksizlər, satışa görə vergilər və s;

-ayrı-ayrı xidmət növlərinə görə vergilər (nəqliyyat, rabitə xidmətlərinə görə vergilər, sığorta vergiləri, reklam, əyləncələrə, oyun və lotereyalara, idman tədbirlərinə görə vergilər və s);

-dövlətin gəlirini artırmaq məqsədilə müəyyən növ məhsul və xidmətlərin istehsalına və yerləşdirilməsinə qanunla inhisar hüququ verilən dövlət müəssisələrinin mənfəəti (fiskal inhisarçıların mənfəəti);

-idxal və ixrac vergiləri, gömrük rüsumları.

**Dəyər ifadəsində sənaye məhsulunun həcminə** - əsas fəaliyyəti sənaye olan müəssisələr (hüquqi şəxslər) və onların ayrı-ayrı xüsusiləşdirilmiş bölmələri, hüquqi şəxs yaratmadan sənaye fəaliyyəti göstərən fərdi sahibkarlar tərəfindən, habelə ev təsərüffatları tərəfindən satılmaq üçün istifadə olunmuş sənaye məhsulunun, sənaye xarakterli işlərin, xidmətlərin dəyəri daxil edilir. Bura sənaye müəssisəsinin və fərdi sahibkarın bütün bölmələri tərəfindən kənara satılmış, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə verilmiş, özünün əsas fondlarının (vəsaitlərinin) tərkibinə daxil edilmiş, eləcə də əmək haqqı kimi öz işçilərinə verilmiş məmulat və məhsulların dəyəri, həmçinin hesabat dövründə və ya əvvəllər istehsal olunmasından asılı olmayaraq hesabat dövründə kənara, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə satılmış özünün istehsalı olan yarımfabrikatların dəyəri daxil edilir. Dəyəri hazır məhsulun istehsalçısı tərəfindən ödənilməyən xammal və materiallardan hazırlanan məmulat bu xammal və materialların dəyəri çıxılmaqla faktiki qüvvədə olan buraxılış qiymətləri ilə sənaye məhsulunun dəyərinə daxil edilir. Sənaye müəssisələrində məhsulun dəyəri zavoddaxili dövriyyənin dəyəri nəzərə alınmadan zavod metodu ilə müəyyən edilir.

Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir.

Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılmışdır.

**Sənaye istehsalı indeksi** - dəyər ifadəsində sənaye məhsulunun həcminin dəyişməsinin dinamikasını xarakterizə edir. Sənaye statistikasında tətbiq edilən metodologiyaya görə, artım (azalma) sürətləri məhsulun natura ifadəsində istehsalına əsaslanmaqla yanaşı aqreqasiya zamanı çəkilər sistemində dəyər ifadəsində "əlavə dəyər" göstəricisi istifadə olunur.

Sənaye istehsalı indeksinin hesablanmasında mikro sahibkarlıq subyektləri üzrə məlumatlar yalnız rüblük dövrilikdə nəzərə alınır.

**Əsas kapitala yönəldilmiş vəsaitlər** – bütün növ əsas vəsaitlərin alınmasına, yaradılmasına və təkrar istehsalına yönəldilmiş xərclərin məcmusudur. Əsas kapitala yönəldilmiş vəsaitlər tikinti-quraşdırma işlərinə, quraşdırılması tələb olunan və ya tələb olunmayan, tikili və obyektlərin smetasına daxil olan və ya daxil olmayan maşın və avadanlıqların alınmasına və quraşdırılmasına, işçi və məhsuldar heyvanların alınmasına, çoxillik əkmələrin və meşə zolaqlarının salınmasına, layihə-axtarış və sair işlərin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyələşdirmə mənbələri müəssisə və təşkilatların öz vəsaitləri, büdcə vəsaitləri (dövlət büdcəsi və ya yerli büdcələr), əhalinin şəxsi vəsaitləri, bank kreditləri, büdcədənkənar fondların vəsaitləri və digər vəsaitlər ola bilər.

Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir.

Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılmışdır.

**Tikinti-quraşdırma işlərinə sərf edilən vəsait** – yeni tikilən, yenidən qurulan, genişləndirilən bütün növ bina və qurğuların layihə-smeta sənədlərində yerinə yetirilməsi nəzərdə tutulmuş tikinti işlərinə və tikintinin smetasına daxil olan və daxil olmayan avadanlıqların quraşdırılması işlərinə sərf edilmiş vəsaitlərin yekunundan ibarətdir.

**Məhsul istehsalı obyektlərinin tikintisinə –** sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və tikinti fəaliyyət sahəsi obyektlərinin inşasına yönəldilmiş vəsaitin həcmi daxildir.

**Xidmət sahələri obyektlərinin tikintisinə** – ticarət, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, daşınmaz əmlak, təhsil, səhiyyə, istirahət, əyləncə və incəsənət və digər xidmət sahələri obyektlərinin inşasına yönəldilmiş vəsaitin həcmi daxildir.

**Neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər** - xam neftin, təbii qazın hasilatı və neft məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin əsas kapitala yönəldilmiş vəsaitlərdir.

**Qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər dedikdə,** neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər istisna olmaqla, ölkə iqtisadiyyatının bütün fəaliyyət sahələrində əsas kapitala yönəldilmiş vəsaitlər başa düşülür.

**Xarici mənbələrdən əsas kapitala yönəldilmiş xarici vəsaitlər** – xarici sərmayədarlar tərəfindən yeni tikintiyə, yenidənqurma və genişləndirmə üzrə tikinti işlərinə, maşın və avadanlıqların əldə edilməsinə sərf edilən investisiyalar aiddir. Buraya həmçinin tikinti işlərində istifadə edilmiş xarici kreditlər, qrantlar və humanitar yardımlar hesabına istifadə edilmiş vəsaitlər də daxildir.

**Daxili mənbələrdən əsas kapitala yönəldilmiş daxili vəsaitlər** – mənşəyi xarici vəsaitlər olmayan, ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatların öz vəsaitləri, büdcə vəsaiti (dövlət büdcəsi və ya yerli büdcə), ölkə vətəndaşlarının şəxsi vəsaitləri və ölkə banklarının kreditləri hesabına əsas kapitala yönəldilmiş vəsaitlərin məcmusudur.

**Podrat müqavilələri ilə yerinə yetirilən tikinti işlərinin dəyərinə** – tikinti müəssisələri ilə tikinti işlərinin həyata keçirilməsini maliyyələşdirən sifarişçi müəssisə və təşkilatlar arasında bağlanmış müqavilələr əsasında tikinti müəssisələrinin öz gücləri ilə yerinə yetirdikləri bütün növ tikinti işlərinin və xidmətlərin dəyəri aiddir. Bu işlərə tikinti-quraşdırma (yeni tikinti, yenidənqurma, genişləndirmə), əsaslı təmir, cari təmir və digər işlərin və xidmətlərin dəyəri daxildir.

**İstifadəyə verilmiş yaşayış evlərinin ümumi sahəsi** – ümumi sahəyə mənzildəki bütün otaqların sahəsi, mətbəxlərin, dəhlizlərin, sanitar qovşaqlarının, vanna və qarderobların, anbarların, eyvanların, lociyaların və digərlərin sahəsi daxildir.

**Yaşayış evlərində mənzillər** – daimi yaşayış üçün istifadə olunan, başqa yaşayış mənzilləri ilə daxili əlaqəsi olmayan və özünün pilləkən meydançasına, ümumi dəhlizə və ya bilavasitə küçəyə çıxış yolu olan sahədir. Mənzil bir neçə otaqdan ibarət ola bilər.

**Kənd, meşə və balıqçılıq təsərrüfatının ümumi məhsulu** dedikdə, bu sahədə (kənd, meşə və balıqçılıq) həm satış, həm də şəxsi istehlak məqsədilə istehsal edilmiş məhsul və xidmətlərin ümumi dəyəri nəzərdə tutulur. O, bitkiçilik və heyvandarlıqda, ovçuluq, meşəçilik və balıqçılıq təsərrüfatlarında istehsal olunmuş məhsulların (xidmətlərin) dəyəri əsasında formalaşır.

**Bitkiçilik və heyvandarlığın ümumi məhsuluna** istehsal olunmuş bitkiçilik və heyvandarlıq məhsullarının dəyəri, bitkiçilikdə bitməmiş istehsalın dəyərinin dəyişməsi və göstərilmiş kənd təsərrüfatı xidmətlərinin dəyəri daxil edilir.

**İstehsal olunmuş bitkiçilik məhsulunun dəyərinə** kənd təsərrüfatı bitkiləri məhsullarının – dənli, texniki bitkilərin (yağlı bitkilərin toxumları, şəkər çuğunduru, tütün və s.), kartof, tərəvəz və bostan bitkilərinin, meyvə və giləmeyvənin, digər bitkiçilik məsullarının (yemlik kökümeyvəlilər, quru ot, küləş, senaj, silos, güllər və s.) dəyəri daxil edilir.

**Bitkiçilikdə bitməmiş istehsalın dəyərinə** torpağın becərilməsinə çəkilən xərclər (payız şumlaması, herik şumlanması, məhsulu gələcək dövrlərdə əldə olunacaq payızlıq taxılın əkini üçün zəmin hazırlanması), yatırım xərcləri, bağların becərilmə və saxlanma xərcləri daxildir.

**Heyvandarlıqda istehsal olunmuş məhsulların dəyəri** kənd təsərrüfatı heyvanlarından alınmış məhsulların (süd, yumurta, yun, dəri və s.) dəyəri, kəsim üçün satılmış mal-qara və quşların dəyəri, arıçılıq və xəzli heyvandarlıq məhsullarının dəyərindən ibarətdir.

**Göstərilmiş kənd təsərrüfatı xidmətlərinin dəyərinə** tarlaçılıq, açıq torpaqda tərəvəzçilik və gülçülük sahəsində, qorunan torpaqlarda becərilmə üzrə, bağçılıq, üzümçülük sahəsində və digər çoxillik əkmələrə göstərilən xidmətlər, aqromeliorasiya xidmətləri, kənd təsərrüfatı bitkilərinin xəstəlik və ziyanvericilərdən qorunması, gübrələrin hazırlanması və gətirilməsi, heyvanların yetişdirilməsi, məhsul yığımından sonrakı kənd təsərrüfatı xidmətləri, çoxaldılma üçün toxumun emal və hazırlanması, tinglik xidmətlərinin dəyəri daxildir.

**Ovçuluq təsərrüfatlarında istehsal olunmuş məhsulun dəyərinə** vəhşi heyvanların və ov quşlarının ovlanmasından əldə olunmuş dəyər, ovçuluq təsərrüfatının aparılması (vəhşi heyvanların qorunması, onların sayının və yayılmasının uçotu, ovçuluq təsərrüfatlarının yaradılması və ovçuluq təsərrüfatlarında iqtisadi müşahidələrin aparılması və s.) xərcləri, vəhşi heyvanların və ov quşlarının yetişdirilməsi və ovlanması üçün göstərilən xidmətlərin dəyəri daxil edilir.

**İstehsal olunmuş meşəçilik və ağac tədarükü məhsullarının dəyərinə** meşəyə qulluq və əsas istifadə ilə bağlı doğranmanın gedişində alınmış oduncaq, meşə əkmələrinin rekonstruksiyası ilə əlaqədar kəsmələr və seçmə sanitar kəsmələr, meşələrin becərilməsi, bərpası və salınması xərcləri, meşəçilik və ağac tədarükü ilə əlaqədar xidmətlərin dəyəri aid olunur.

**Balıqçılıq və dəniz məhsullarının dəyərinə** ovlanmış balığın, dəniz məhsullarının (xərçəngkimilər, molyusklar, tısbağalar, suitilər, dəniz kirpisi, təbii mirvarilər, mərcanlar, yosunlar və s.) dəyəri, dəniz orqanizmlərinin və bitkilərinin yetişdirilməsinə, mühafizəsinə çəkilən xərclər, biotexniki tədbirlərin yerinə yetirilməsi (süni kürütökmə yerlərinin quraşdırılması balıq ehtiyatlarının artırılması, vətəgə əhəmiyyətli balıqların təkrar istehsalı), balıqçılıq və balıq ovlanması ilə bağlı göstərilən xidmətlərin dəyəri daxildir.

**Mal-qaranın sayı** haqqında məlumatlar kənd təsərrüfatı müəssisələri üzrə rəsmi statistik hesabat formaları, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə kənd ərazi icra dairələrinin (vahidlərinin) hesabatları və seçmə müayinə materiallarına əsasən hesablanması yolu ilə müəyyən olunur.

**Nəqliyyat sektorunda yük daşınması** - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əsas fəaliyyəti nəqliyyat işi olan hüquqi şəxslər-müəssisələr və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən kommersiya məqsədilə daşınmış yüklərin həcmidir.

**Nəqliyyat sektorunda yük dövriyyəsi** - nəqliyyat müəssisələri və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslərin-fərdi sahibkarların

nəqliyyat vasitələrinin daşıdığı yükün həcmini daşınmış məsafə ilə əlaqədə ton-kilometrlərlə ifadə edir. Bu göstərici hər bir reys üzrə daşınmış yükün tonla miqdarının daşınma məsafəsinə-kilometrlərə vurulması hasillərinin cəmi kimi hesablanır.

**Nəqliyyat sektorunda sərnişin daşınması** - ölkə ərazisində və beynəlxalq marşrutlarda bütün növlərdən olan qatarlar, gəmilər, avtobus, taksi, təyyarə və metro vasitəsi ilə daşınmış sərnişinlərin sayını əhatə edir. Sərnişin daşınmasının həcminə, gediş haqqını almaq üçün tətbiq edilən tarif dərəcəsindən asılı olmayaraq, ölkə daxilində və beynəlxalq xətlərdə daşınmış sərnişinlərin hamısı (ödəniş etmədən getmək hüququ olan sərnişinləri də daxil etmək şərti ilə) daxildir.

**Nəqliyyat sektorunda sərnişin dövriyyəsi** – sərnişindaşıma nəqliyyatının işinin həcmini məsafə ilə xarakterizə edir və sərnişin-kilometrlə ölçülür. Sərnişin dövriyyəsi daşınmış sərnişinlərin sayını onların daşınma məsafəsinə vurmaq yolu ilə hesablanır.

**Rabitə xidmətlərinin dəyəri** - rabitə müəssisəsinin əsas fəaliyyətindən əldə olunan gəlirlərdir və bu göstərici idarə, müəssisə və təşkilatlara, habelə əhaliyə göstərilmiş rabitə xidmətləri müqabilində rabitə müəssisəsinin əldə etdiyi pul vəsaitinin cəmini xarakterizə edir. Buraya poçt rabitəsi, feldyeger və xüsusi rabitə, sənədli elektrik rabitəsi, şəhərlərarası və beynəlxalq telefon rabitəsi, şəhər telefon rabitəsi, kənd telefon rabitəsi, radiorabitə, radio və televiziya yayımı və peyk rabitəsi, naqilli səs yayımı üzrə radiotezliklərin ayrılması, qeydiyyatı, istismarı və nəzarəti, naqilsiz radiorabitə üzrə, mobil telefon rabitəsi, internet xidmətləri, İSDN xidmətləri, ADSL və HDSL xidmətləri, DATA xidmətləri, simsiz yerli telefon rabitəsi xidmətləri və digər rabitə xidmətləri üzrə əldə olunmuş gəlirlər daxildir.

**Pərakəndə əmtəə dövriyyəsi** - əmtəələrin tədavül sferasından şəxsi istehlak sferasına hərəkətinin son mərhələsini, əmtəələrin əhaliyə satışını əks etdirir.

**İaşə əmtəə dövriyyəsi** - iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, xörəklər, yarımfabrikatlar, həmçinin

aşpazlıq emalından keçməmiş digər əmtəələrin əhaliyə satışını əks etdirir.

**Əhaliyə göstərilən ödənişli xidmətlər** - əhalinin sifarişi ilə, onun şəxsi tələbatını ödəmək üçün göstərilən və haqqı əhali tərəfindən ödənilən xidmətlərin dəyərini əks etdirir.

**İxrac** - ölkədə istehsal olunmuş və ya başqa ölkələrdən gətirilmiş malların (təkrar ixrac) ölkə sərhədlərindən kənara göndərilməsidir. Ölkənin öz istehsalı sayılan mallara, həmçinin ölkəyə gətirilən və təkrar emal olunaraq əsas kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən xarici mənşəli mallar da daxil edilir.

**İdxal** - ölkədə istehlak etmək və ya təkrar ixrac edilmək üçün ölkə sərhədlərindən kənardan mal gətirilməsidir.

**Xarici ticarət dövriyyəsi** - idxal və ixracın dəyərinin cəmidir.

**Xarici ticarət saldosu** - ixrac və idxalın fərqidir. Əgər ixrac idxaldan çoxdursa müsbət saldo, idxal ixracdan çoxdursa mənfi saldo alınır.

**Orta aylıq nominal əməkhaqqı –** hesablanmış əməkhaqqı fondunun faktiki işləmiş muzdlu işçilərin orta siyahı sayına (sosial və ödənişsiz məzuniyyətdə olan şəxslər istisna olmaqla) bölünməsi ilə müəyyən edilir.

**Büdcə** - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir.

**Büdcə gəlirləri** - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardır.

**Büdcə xərcləri** - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaitdir.

**Büdcə kəsiri (defisit)** - büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləğidir.

**Büdcə artıqlığı (profisit)** - büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləğidir.

**Maliyyə nəticələrinin (mənfəət (+) zərər (-) saldosu)** – təşkilatın bütün təsərrüfat əməliyyatlarında, mühasibat uçotu əsasında aydınlaşdırılmış son maliyyə nəticələridir ki, məhsul (mal və xidmətlər) satışından əldə edilən mənfəəti (zərər), əks etdirərək, təşkilatın digər əmlakından, əsas vəsaitlərdən və satışdankənar əməliyyatlardan alınan gəlirlərin bu əməliyyatlara çəkilən xərci qədər azaldılan hissəsidir.

**Pul aqreqatı M2** Milli valyuta hesabatlarında, cari hesabatlarda və qeyri-maliyyə təşkilatları və fiziki şəxs depozitlərinin tədavüldə (bankdan kənar) olan nağd pulların həcmini və qalıq vəsaitini özündə əks etdirir.

**İqtisadi fəal əhali** – məşğul və işsiz əhalinin ümumi sayıdır.

**İqtisadi qeyri-fəal əhali –** məşğul olmayan, müəyyən dövr ərzində iş axtarmayan və işə başlamağa hazır olmayan 15 və yuxarı yaşda olan şəxslərdir.

**Məşğul əhali** - Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq qazanc (gəlir) gətirən hər hansı fəaliyyətlə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər və əcnəbilərdir.

**İşsiz əhali** – işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanında işaxtaran kimi qeydiyyata alınan əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxslərdir. Bu şəxslər, milli qanunvericiliyə uyğun olaraq işsiz statusu almaq hüququna malikdir.

**İşsizliyin səviyyəsi –** işsizlərin sayının iqtisadi fəal əhalinin sayında faizlə ölçülən xüsusi çəkisidir.

**İstehlak qiymətləri indeksi (İQİ) –** orta alıcılıq qabiliyyətli alıcının aldığı malların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir. Bu göstərici müəyyən dövr ərzində istehlak edilən malların və xidmətlərin dəyişməz qaldığı şəraitdə əhalinin istehlak xərclərinin ümumi

məbləğinin dəyişməsini əks etdirir. İQİ-nin başlıca təyinatlı istehlak mallarının və xidmətlərin qiymət dinamikasının müəyyənləşdirilməsidir.

**Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi (SQİ)** – baza sənaye müəssisələri və təşkilatlarının təmsilçi mallarının qiymət qeydiyyatı əsasında hesablanılır. Qeydiyyat üçün cari ayda istehsal olunan və yüklənən məhsulların faktiki qiymətləri (əlavə dəyər vergisi, aksizlər, məhsulun maya dəyərinə aid olmayan daşınma xərcləri və s. vergi ödəmələri nəzərə alınmadan) götürülür. Sənaye məhsulları istehsalçılarının qiymət indeksi həm məhsullar, həm də iqtisadi fəaliyyət növlərinə görə hesablanır.

**Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi (KTQİ)** – kənd təsərrüfatı müəssisələri, fermer təsərrüfatları və ev təsərrüfatları tərəfindən müxtəlif kanallar üzrə realizə edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsi və dinamikasını xarakterizə edir. Kənd təsərrüfatı məhsullarının qiymətləri üzərində müşahidə kənd təsərrüfatı müəssisələrinin seçmə şəbəkəsi üzrə həyata keçirilir.

Alınmış məlumatlar kənd təsərrüfatı məhsullarının realizə şərtlərinin dəyişməsinin təhlilində və kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin dəyişməsində qiymətin rolunun aydınlaşdırılmasında istifadə edilir.

**Tikinti-quraşdırma işlərində istehsalçı qiymətləri indeksi** - "Tikinti" iqtisadi fəaliyyət növünü xarakterizə edən qiymət statistikası sisteminin göstəricilərindən biri hesab olunur və "tərkib elementləri" metodu ilə hesablanır. Tikintidə qiymətlərin dinamikası üçün ən vacib, tipik tikinti məhsullarının - yerüstü tikililər və yol qovşaqlarında istifadə olunan məhsulların müayinəsi aparılır.

İndeksin hesablanması üçün informasiya mənbəyi kimi tikinti təşkilatlarının seçmə şəbəkəsinin statistik müayinə məlumatları çıxış edir. Tikinti-quraşdırma işlərinin hər bir növü üzrə hesabat və əvvəlki dövrün faktiki qiymətlərinin müqayisəsi yolu ilə fərdi indeksləri hesablanır. Daha yüksək səviyyələrdə qiymət indekslərinin aqreqasiyası zamanı seçilmiş tipik tikili növlərinin inşasında ilkin iş və elementlərin

dəyər qiymətləndirilməsi ilə əsaslandırılmış çəki strukturundan istifadə olunur.

Tikintidə mövcud olan smeta-normativ bazasına əsaslanan tikinti elementləri bundan sonra respublika ərazisini təmsil edən tikililərin standart tipləri üzrə aqreqasiya olunur.

**Nəqliyyat sektorunda yükdaşıma qiymətləri indeksi -** ayrı-ayrı nəqliyyat növlərinin yükdaşıma qiymətlərinin dəyişmə templərinin qiymətləndirilməsi üçün həmçinin, ümumi daxili məhsulun (ÜDM) artma (azalma) tempinin hesablanması üçün istifadə olunan deflyator indekslərin və digər makroiqtisadi göstəricilərin müəyyən edilməsi üçün nəzərdə tutulub. Onlar nəqliyyat təşkilatlarının müxtəlif nəqliyyat növləri vasitəsilə yükdaşımalardan əldə etdikləri gəlirlərdəki qiymət amilinin xarakterizə edilməsi üçün istifadə edilir. Yükdaşıma qiymətləri indeksləri makro səviyyədə proqnozların verilməsi və müxtəlif iqtisadi hesablamaların yerinə yetirilməsi zamanı tətbiq edilir. Yükdaşıma qiymətləri indeksləri müxtəlif əlamətlərə: yükün növünə, göndərmənin ölçüsünə, çatdırma vaxtına, daşınma məsafəsinə, daşınma ərazisinə, hərəkət edən tərkibin növünə, yükqaldırma səviyyəsinə və s. görə daşınan yüklərin strukturundakı dəyişmələri nəzərə almadan hesabat dövrü üzrə onların dəyişmələrini müəyyən etməyə imkan verir.

Bütün nəqliyyat növlərinin yükdaşıma qiymətlərinin məcmu indeksi dəmir yolu, boru kəməri, dəniz, daxili sular, avtomobil və hava nəqliyyatı növlərinin yükdaşıma qiymətlərinin indeksləri əsasında müəyyən edilir.

**Əhali sayının cari hesablanması** əhalinin son siyahıyaalmasının yekunları əsasında aparılır və hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün bu əraziyə gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Növbəti siyahıyaalmanın yekunlarına əsasən əvvəlki siyahıyaalınmadan sonrakı dövrdə əhalinin sayı və tərkibi üzrə müvafiq dəqiqləşdirmələr aparılır.

Əhali yaşayış yerlərinə görə şəhər və kənd əhalisinə bölünür. Şəhər yerlərinə şəhərlər və qəsəbələr aid edilir, qalan bütün yaşayış məntəqələri isə kənd yerləri sayılır.

**Doğulanlar və ölənlər** haqqında məlumatlar Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən tərtib edilən doğum və ölüm haqqında müvafiq akt qeydlərində olan məlumatların hər ay statistik cəhətdən işlənməsi nəticəsində əldə edilir. Doğulanların sayına yalnız diri doğulanların sayı daxil edilir.

**Əhalinin təbii artımı** – təqvim ilində diri doğulanların sayı ilə ölənlərin sayının fərqinə bərabərdir.

**Doğumun ümumi əmsalı** – uşaq doğumunun intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində diri doğulanların sayının əhalinin orta illik sayına nisbəti ilə ölçülür, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Ölümün ümumi əmsalı** – əhali arasında ölümün intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində, müvafiq olaraq ölənlərin sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Təbii artımın əmsalı** – əhalinin təbii artımı nisbi göstəricilərlə də səciyyələndirilə bilər. Təbii artım əhalinin orta illik sayına bölünərək orta illik əhalinin hər 1000 nəfərinə hesablanır və ya doğumun və ölümün ümumi əmsallarının fərqi ilə müəyyən edilir.

**Ölümün səbəbləri** haqqında informasiya mənbəyi ölümə səbəb olmuş xəstəlik, bədbəxt hadisə, qətl, özünəqəsd, və digər xarici təsirlərlə əlaqədar olaraq səhiyyə müəssisələrində tərtib olunan ölüm haqqında tibbi şəhadətnamələrdəki qeydlərdən ibarətdir.

Ölüm haqqında məlumatların səbəblər üzrə kodlaşdırılması və işlənməsi xəstəliklərin, zədələr və ölümün səbəblərinin 10-cu baxılış Beynəlxalq Təsnifatına uyğun aparılır.

**Doğulanda gözlənilən ömür uzunluğu (0 yaş üçün)** – doğulanların hər birinin orta hesabla yaşaya biləcəyi illərin sayını göstərir. Burada doğulanların bütün ömrü boyu ölümün səviyyəsinin hər yaş qrupu üzrə göstəricinin hesablandığı ildəki səviyyədə dəyişməz qalacağı şərti qəbul edilir. Doğulanda gözlənilən ömür uzunluğu həyat cədvəllərinin hesablanması nəticəsində alınır.

**Nikah** kişi və qadının bir-birinə və uşaqlara qarşı hüquq və vəzifələrini müəyyənləşdirən münasibət formasıdır. Ər və arvad arasında hüquqi münasibət, onların nikahlarının Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeyd etdirilməsidir.

Əhalinin təbii hərəkətinin cari statistikası yalnız hüquqi cəhətdən qeyd olunmuş nikahları nəzərə alır. Əhalinin siyahıyaalınmasında isə rəsmi qeydə alınıb-alınmamasından asılı olmayaraq, faktiki nikahda olanlar da hesaba alınır.

**Nikahın ümumi əmsalı** – təqvim ilində qeydə alınmış nikahların sayının əhalinin orta illik sayına olan nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Boşanma (nikahın pozulması)** – birlikdə yaşayan ər-arvadın nikahlarının son hüquqi ləğvi tərəflərə təkrar nikaha daxil olmaq hüququ verir. Nikahın pozulma faktı Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeydiyyata alındıqdan sonra pozulmuş hesab olunur.

**Boşanmanın ümumi əmsalı** – təqvim ilində qeydə alınmış boşanmaların sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.